QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 145 (5865) **10 avqust** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Qaçqın və məcburi köçkünlərə qayğı dövlət siyasətinin prioritetlərindəndir



*Prezident İlham Əliyev:*
*“Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir”*

Səh 2

5

**XİN və “Azərkosmos”dan Ermənistanın Dağlıq Qarabağdakı qeyri-qanuni fəaliyyəti ilə bağlı açıqlama**



7

**Xalqımız əmin-amanlıq şəraitində Qurban bayramını qeyd edir**



6

**Paşinyanın Xankəndi ritorikası: regionu faciəyə sürükləmək riski**



# Qaçqın və məcburi köçkünlərə qayğı dövlət siyasətinin prioritetlərindəndir

*Prezident İlham Əliyev: "Sosial məsələlər arasında, əlbəttə ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir"*

***Azərbaycanda prioritet istiqamət kimi müəyyənləşdirilən sosial siyasət bu gün cəmiyyətdə maddi rifah halının davamlı şəkildə yüksəlməsi ilə müşayiət edilməkdədir. Əməkhaqlarının və sosial müavinətlərin, insanların gəlirlərinin artması Azərbaycanın sosial siyasətinin də dünyaya nümunə ola biləcək səviyyədə yüksəlməsinə gətirib çıxarıb. Bütün bunları Azərbaycanın bütün vətəndaşları kimi məcburi köçkünlər də gündəlik həyatlarında hiss edirlər.***



Məlum faktdır ki, Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün ölkə Prezidenti İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması və digər problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilib.





Məhz bunun nəticəsidir ki, indiyədək 300 minə yaxın qaçqının və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sürətli inkişaf, məşğulluq, sosial problemlərin effektiv həlli qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklərin böyük miqyasda aradan qalxmasına rəvac verib. Əlverişli sosial atmosferin yaradılması, bütün ölkə miqyasında tərəqqinin sürətlənməsi, yeni iş yerlərinin açılması və əhalinin məşğulluğunun təmin edilməsi onların davamlı, sabit gəlirləri üçün əsas yaradıb. Məcburi köçkünlərin qarşılaşdıqları mənzil probleminin həllinə də dövlət ən yüksək səviyyədə daim böyük diqqət və qayğı göstərib. Elə bunun nəticəsidir ki, təkcə keçən il 5 min 901 ailə və ya 27 minə yaxın məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb. Bundan əlavə, müvəqqəti məskunlaşma yerlərində aparılmış təmir işləri nəticəsində 158 ailə mənzillə təmin olunub. Ümumiyyətlə isə, 2001-2018-ci illər ərzində qaçqın və məcburi köçkünlər üçün ölkənin 30-dan çox şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,5 milyon kvadratmetr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik fərdi evlərdən, çoxmərtəbəli binalardan ibarət 103 müasir qəsəbə (bu il də əlavə bir qəsəbə istifadəyə verilib) və ya yaşayış kompleksi salınıb. Bunun da 3,3 milyon kvadratmetr yaşayış sahəsinə malik 97-si və yaxud 95 faizi son 16 ildə inşa edilib.

## Yoxsulluq 75 faizdən 12 faizədək azalıb

Bu, bir real faktdır ki, Azərbaycanda məcburi köçkünlərə göstərilən diqqət və qayğının dünyada analoqu yoxdur. Özü də bu, heç bir beynəlxalq konvensiyaya, ya da öhdəliyə əsaslanmır, sadəcə, Prezident İlham Əliyevin siyasi iradəsinin ifadəsi, sosial-iqtisadi potensialının göstəricisidir. Bu sahədə aparılan işlər nəticəsində artıq 300 min qaçqın və məcburi köçkün yeni mənzillərə köçürülüb, 103 yeni qəsəbə salınıb. Görülən fəaliyyətin nəticəsi olaraq, 16 il ərzində məcburi köçkünlər arasında yoxsulluq həddi 75 faizdən 12 faizədək azalıb.

Dövlət qurumları və beynəlxalq təşkilatların iştirakı, onların rəy və təklifləri, beynəlxalq təcrübə nəzərə alınmaqla "Böyük Qayıdış" proqramının hazırlanmasıdır. Bu istiqamətdə atılan ilk iki addım Cocuq Mərcanlı kəndini və əvvəllər Dağlıq Qarabağın inzibati ərazisi olmuş Tərtər rayonunun Şıxarx qəsəbəsini göstərmək olar. Dövlətin məqsədi odur ki, "Böyük Qayıdış" proqramı tam icra olunsun. Əslində, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ilə tezliklə həllinə hər bir azərbaycanlı qəti şəkildə əmindir. Çünki kifayət qədər güclənən Azərbaycan dövləti və xalqı əzəli, tarixi torpağının daha düşmən tapdağı altında qalmasına dözmək niyyətində deyil. Azərbaycan bütün dünya tərəfindən tanınan ərazi bütövlüyünü sülh yolu ilə bərpa etmək imkanları tükənməmiyindən Ermənistanla danışıqlar prosesini davam etdirir.

## Sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər

Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamına əsasən məcburi köçkünlərə ödənilən vəsaitin həcmi 50 faiz artırılıb. Bununla da, məcburi köçkün ailələrinin hər bir üzvünə kommunal xərclərin ödənilməsi üçün dövlət tərəfindən 60 manat vəsait ödəniləcək. Bu, o deməkdir ki, əgər ailədə 4 nəfər ailə üzvü varsa, onlar 240 manat dövlət büdcəsindən aylıq olaraq vəsait əldə etmək imkanı qazanacaq. Əvvəllər bu rəqəm 160 manat idisə, aprel ayında bu rəqəm 240 manat olacaq. Birdəfəlik aylıq müavinətin artırılması məcburi köçkünlərin sosial təminatı baxımından çox vacibdir. Bu, məcburi köçkün ailələrinə dəstək kimi qiymətləndirilməlidir. Artımlar ailə üzvlərinin sayı çox olan məcburi köçkünlərə dövlət büdcəsindən daha çox vəsait əldə etmək imkanı verəcək. Bu kontekstdə son addım Azərbaycanda həyata keçirilən sosial islahatların bir elementi kimi qiymətləndirilməlidir. Müavinətlərin artırılması həssas qrup olan məcburi köçkünlərin sosial təminatının daha da yaxşılaşmasına dəstəkdir. Məcburi köçkünlər dövlət başçısının bu qərarını yüksək dəyərləndirir. İnsanlar inanırlar ki, Cənab Prezidentin qətiyyətli siyasəti nəticəsində doğma torpaqlarına qayıdacaqlar.

**RƏFİQƏ KAMALQIZI**



## Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müqəddəs Qurban bayramı münasibətilə Azərbaycan xalqını və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı təbrik edib.***

Dövlətimizin başçısı təbrikində Qurban bayramının Allahın bəşəriyyət üçün hidayət yolu seçdiyi İslamın əsas bayramlarından biri kimi özündə mənəvi birliyi, həmrəyliyi, xeyirxahlığı və dözümlülüyü ehtiva edərək, insanın ən çətin məqamlarda düzgün mövqe seçmək və ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini əks etdirdiyini vurğulayır.

Təbrikdə deyilir: "Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir. Azərbaycanda bütün dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il böyük təntənə və yüksək əhval-ruhiyyə ilə keçirilir. Bu günlər dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur. Ümidvaram ki, bütün xeyirxah niyyətləriniz, dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradanın mərhəməti heç zaman xalqımızın üstündən əskik olmayacaqdır".

Qurban bayramı münasibətilə hər kəsə səmimi təbriklərini çatdıran Prezident İlham Əliyev qurbanların Allah tərəfindən qəbul olunmasını arzulayır, bu mübarək bayramın ailələrə səadət, süfrələrə xeyir-bərəkət gətirməsini diləyir.

# Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr Azərbaycana diqqəti daha da artırır

***Müasir dövrümüzdə Ümummilli Lider Heydər Əliyevin müdrikliyinə əsaslanan həyat fəlsəfəsi, xalqa xidmət missiyası, ideyaları bir elm olaraq öyrənilir və təbliğ olunur. Onun irsinin təbliğində adını daşıyan Heydər Əliyev Fondu, böyük missiyanın daşıyıcısı olaraq, bu istiqamətdə ardıcıl layihələr həyata keçirir. Fondun fəaliyyət dairəsi zaman baxımından çox olmasa da, görülən işlərin çoxşaxəliyi və miqyası onilliklərə bərabər tutulur.***



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva mədəniyyətlərarası dialoqun təmin olunması, zorakılığın bütün təzahürlərinin qarşısının alınması, həmçinin, gender bərabərliyi kimi məsələlərə diqqət yetirir, bu və ya digər məsələlərin həllində layihələr həyata keçirməklə yanaşı, beynəlxalq əhəmiyyətli tədbirlərdə qeyd olunan məsələlərə önəm verir. Mehriban xanım Əliyeva dünyanın olduqca mürəkkəb bir prosesdə yaşadığından, bəşər aləmində yaşayan insanların müxtəlif dinə və irqə mənsubluğu olsalar da, onları birləşdirən dialoqa çağırır. Mehriban xanım Əliyevanın dediyi kimi, dünyanın bir çox ölkələrində on milyonlarla insan irqinə, etnik köklərinə və dininə görə ayrı-seçkilik və təcridolunmanın ağır nəticələri ilə üzləşir: "Günahsız insanların həyatına son qoyan terror aktları, siyasi və dini radikalizm bizim və övladlarımızın təhlükəsizliyini sual altına alır. Müharibə və münaqişələr milyonlarla insanı məhv edərək, dünyanın müxtəlif guşələrində davam edir".






Mehriban xanım Əliyeva məqsədlərimizə nail olmaq üçün millətlər arasında qarşılıqlı əlaqəni quraraq, daha güclü münasibətləri yaradaraq, ekstremizm və ksenofobiya kimi maneələrin aradan qaldırılmasının vacibliyini çıxışlarının birində diqqətə çatdırıb: "... çalışırıq birgə tədbirlər görək ki, mədəniyyətlər və sivilizasiyalar arasındakı gərginliklər aradan qalxsın. Çünki onlar bəzi hallarda dini, mədəni və sosial məhdudiyyətlər yaradır".

Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində bir-birinin ardınca Azərbaycanın mənəvi inciləri dünya qeyri-maddi mədəni irs siyahısına salınır. Ölkəmiz, sözün əsl mənasında, fərqli sivilizasiyaların və mədəniyyətlərin dialoqu və ortaq məxrəc axtardığı məkana çevrilir. Bir-birindən vacib və əhəmiyyətli layihələri həyata keçirərək siyasətçi, diplomat, ictimai xadim yolunu seçən Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın himayəsi altında reallaşan humanitar aksiyaların sayı-hesabı yoxdur. Qaçqın ailələrindən olan uşaqlara kömək, diabet və talassemiya xəstəliyindən əziyyət çəkən balacalara yardım, respublikadakı uşaq evlərinin və internat məktəblərinin əsaslı şəkildə yenidən qurulması, Azərbaycanın, əsasən, kənd yerlərində yeni məktəb binalarının, səhiyyə müəssisələrinin tikilməsi, Mehriban xanımın özünün şəxsən iştirak etdiyi müxtəlif xeyriyyəçilik aksiyalarının keçirilməsi, artıq çoxdandır ki, ənənə halını almışdır. Ölkəmizdə və onun hüdudlarından kənarda insanlar Onu, məhz xeyirxah, humanist və nəcib işlərinə görə sevirlər.

Fondun yaradılması ilə xeyriyyəçilik amalı Mehriban xanım Əliyevanın fəaliyyətinin prioritetinə çevrilmişdir. Başqa sözlə desək, o öz qüvvəsini və fondun əməkdaşlarının səylərini əhalinin ən zəif müdafiə olunan təbəqələrinə yönəltmişdir. Uşaq evlərində tərbiyə alan gənclərin mənzillə təmin olunması kimi daim cəmiyyətimizi narahat edən mühüm problemin həllinə də, məhz Mehriban xanım Əliyevanın xeyirxahlıq missiyası sayəsində nail olunmuşdur. Paytaxtdan başlayan və ilk növbədə, qayğıya daha çox ehtiyacı olan, valideyn himayəsindən məhrum qız uşaqlarının mənzillə təmin olunmasını nəzərdə tutan layihənin icrası ölkəmizdə Mehriban xanım Əliyevanın bu nəcib missiyanın nə qədər ali və müqəddəs olduğunu təsdiq etmişdir.

Fəaliyyətində təhsilə xüsusi önəm verən Heydər Əliyev Fondu "Yeniləşən Azərbaycana yeni məktəb" Proqramı çərçivəsində ölkənin müxtəlif regionlarında məktəblərin yenidən qurulması, müasir avadanlıqla təmin olunması, kitabxanaların ədəbiyyatla zənginləşdirilməsi istiqamətində mühüm işlər görür. Fondun "Təhsilə dəstək" layihəsi isə birbaşa tədrisin keyfiyyətinə təsir göstərən problemlərin həllinə - təhsil ocaqlarının əyani vəsaitlə, şagirdlərin lazımi dərs ləvazimatı ilə təmin olunmasına kömək edir.

Bu sırada Fondun beynəlxalq əməkdaşlıq çərçivəsində görülən işlərini də qeyd etməliyik. Belə əməkdaşlıq və müansibətlərin qurulması Azərbaycanın dünyaya nüfuzunun yayılmasına gətirib çıxarıb. Beynəlxalq əlaqələrin nəticəsində bu gün Fondla BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlıq sazişi, İSESKO ilə əməkdaşlıq haqqında Protokol, "Or-Avner" Beynəlxalq Fondu arasında əməkdaşlıq sazişi, YUNESKO, Azərbaycan Hökuməti və Heydər Əliyev Fondu arasında birgə layihənin icrasına dair saziş imzalanıb. Bütün bunlar Mehriban xanım Əliyevanın, mütəşəkkil olaraq, həyata keçirdiyi layihələr əsasında həllini tapıb. Bununla yanaşı, ABŞ, Rumıniya, Rusiya və Türkiyə kimi nüfuzlu dövlətlərdə fondun nümayəndəlikləri yaradılıb. Bu, artıq Azərbaycan həqiqətləri ilə bağlı reallıqların ictimayyətə çatdırılması haqqında çox məqamlardan xəbər verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Naxçıvanda sosial qayğıya ehtiyacı olanlara fərdi yaşayış evləri, mənzillər və avtomobillər təqdim edilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, avqustun 9-da - müqəddəs Qurban bayramı ərəfəsində Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı sağlamlıq imkanları məhdudlaşmış 2 nəfərə, hərbi xidmət vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş 2 şəxsə və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə fərdi yaşayış evi və mənzillər təqdim olunub, eyni zamanda, sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçısına, hərbi xidməti vəzifəsinin icrası zamanı sağlamlığını itirmiş şəxsə və Çernobıl qəzasında sağlamlığını itirmiş 1 nəfərə "NAZ-Lifan-320" markalı minik avtomobili verilib.***









Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev çıxış edərək deyib ki, muxtar respublikada əhalinin sosial müdafiəsi sahəsində həyata keçirilən tədbirlər xüsusi qayğıya ehtiyacı olan şəxsləri də əhatə edir. Sağlamlıq imkanları məhdud Azərbaycan Vətən Müharibəsi iştirakçıları və şəhid ailələri mənzillər və minik avtomobilləri ilə təmin olunur, onların tibbi bərpası istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2019-cu ilin ötən dövründə 481 sağlamlıq imkanları məhdud şəxsin bərpa mərkəzlərində müalicələri təşkil edilib, 278 şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilib, 8 nəfərə minik avtomobili, 12 ailəyə fərdi yaşayış evi və mənzil təqdim olunub. Nicat Babayev sağlamlıq imkanları məhdud şəxslərə göstərilən diqqətə və qayğıya görə minnətdarlıq edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanları təbrik edərək deyib: Azərbaycanda Vətən qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş şəxslər hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşlar. Bu gün fərdi yaşayış evi, mənzil və avtomobil təqdim olunanlar da xidməti vəzifələrini layiqincə yerinə yetirmiş, vətənpərvərlik nümunəsi göstərmiş şəxslərdir. Bunlar o yerdə baş verir ki, həmin ölkədə dövlət-xalq birliyi vardır. Dövlət xalqına arxalanır, xalq isə dövlətinə inanır. Belə olan halda isə hər bir şəxs dövləti qarşısında öz xidməti borcunu layiqincə yerinə yetirməyə çalışır.

"Bu gün fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanlara dövlətin göstərdiyi qayğı cəmiyyət üçün nümunədir. Cəmiyyətdə bu insanlara xüsusi hörmət və diqqət vardır. Müqəddəs Qurban bayramı ərəfəsində dövlət qayğısı ilə əhatə olunmaq isə hər bir ailəyə ikiqat bayram sevinci yaşadır", - deyən Ali Məclisin Sədri Vətən qarşısında borclarını layiqincə yerinə yetirdiklərinə görə fərdi yaşayış evi, mənzil və avtomobillə təmin olunanlara təşəkkür edib.

Sonra Ali Məclisin Sədri fərdi yaşayış evi və mənzillərin orderlərini, eləcə də minik avtomobillərinin açarlarını təqdim edib.

Mənzil və avtomobillə təmin olunanlardan Qurban Yolçuyev, Nuhin Əhmədov, Bilal Qurbanov, Vahid Hüseynov və Tağı Tağıyev qeyd ediblər ki, bu gün də Ali Baş Komandanın əmrinə hazırıq. Qarşımızda duran vəzifə övladlarımızı da Vətənə layiqli əsgər kimi yetişdirməkdir. Fərdi yaşayış evi ilə təmin olunan Səfər Məmmədovun övladı Murad Məmmədov minnətdarlıq edərək deyib: Muxtar respublikada insanların həyat səviyyəsi günbəgün yaxşılaşır. Bunu gündəlik həyatımızda daha çox hiss edirik. Sağlamlıq imkanları məhdud şəxslər mənzillə və minik avtomobilləri ilə təmin olunur, müalicələrinə köməklik göstərilir. Yaradılan şəraitin nəticəsidir ki, rahat və firavan yaşayırıq. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin 50 illiyi və Qurban bayramı ərəfəsində ailəmizin mənzillə təmin olunması bizi çox sevindirdi. Murad Məmmədov Ulu Öndərə həsr etdiyi şeirini oxuyub:

Gəlişinlə qurtulubdur bu Vətən,
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər.

Ucaltdı hər yerdə bayrağımızı,
Yazdı tarixlərə ad-sanımızı.
Tanıtdı dünyada varlığımızı,
Ulu bir sərkərdə, ulu bir öndər.

Hara baxırsansa nişanələri,
Özündən sonrakı abidələri.
Bizləri tərk etmir xatirələri
Ulu bir sərkərdə, ulu bir öndər.

Heydər adı dastanlara çevrildi,
Onun qüdrətini yer üzü bildi.
Allah onu yurdumuza yetirdi,
Ulu bir sərkərdə, ulu bir öndər.

***

Fərdi yaşayış evləri Şərur rayonunun Maxta, Culfa rayonunun Yaycı və Şahbuz rayonunun Badamlı kəndlərində tikilib. Mənzillərdən biri Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki yeni yaşayış binasında, digəri isə Naxçıvan şəhərində yerləşir. Fərdi yaşayış evləri və mənzillər tam təmir olunub, müasir kommunal-məişət şəraiti yaradılıb.

# Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə “Xəzərin mühafizəsində birik, birlikdəyik” adlı təmizlik aksiyası keçirilib

**Avqustun 9-da Yeni Azərbaycan Partiyasının və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə Xəzər dənizinin Buzovna sahilində *“Xəzərin mühafizəsində birik, birlikdəyik”* devizi altında kütləvi təmizlik aksiyası keçirilib.**



“Xəzər günü” ərəfəsində keçirilən və yüzlərlə insanın qatıldığı aksiyada məqsəd təkcə dəniz sahilini plastik və məişət tullantılarından təmizləmək deyil, həm də insanların çimərliklərin təmiz saxlanılmasına dair cəmiyyətə çağırışı, Xəzərin çirkləndirilməsinə etirazıdır. Aksiyada YAP üzvlərinin və nazirliyin əməkdaşları ilə birgə millət vəkilləri, ziyalılar, tanınmış mədəniyyət və incəsənət xadimləri, könüllülər iştirak ediblər.



Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini Siyavuş Novruzov təmizlik aksiyasının əhəmiyyətindən danışıb. O, Prezident İlham Əliyevin rəhbərliyi altında yürüdülən uğurlu siyasətdən bəhs edib, dövlət başçısının ekoloji məsələlərə xüsusi diqqət yetirdiyini bildirib.



Ekologiya və Təbii Sərvətlər Nazirinin müavini Firdovsi Əliyev qeyd edib ki, tədbirin keçirilməsində məqsəd Xəzər dənizinin və sahil zonasının ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin rolunu artırmaq və bu sahədə ictimaiyyətlə əməkdaşlığı gücləndirməkdir. Tədbir incəsənət xadimlərinin çıxışı ilə davam edib. Buzovna çimərliyi ərazisində dəniz sahilinin plastik və digər tullantılardan təmizlənməsi məqsədi ilə baş tutan aksiyada 10 hektar ərazi tullantılardan təmizlənib, tullantı çeşidlənərək aidiyyəti üzrə daşınıb. Qeyd edək ki, Xəzər dənizinin Azərbaycana aid şimaldan cənuba qədər sahil zolağı boyunca bu cür təmizlik aksiyaları keçirilib. Xatırladaq ki, 2006-cı ildə Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası qüvvəyə mindikdən sonra hər il 12 avqust “Xəzər günü” kimi qeyd edilir.





# XİN və “Azərkosmos”dan Ermənistanın Dağlıq Qarabağdakı qeyri-qanuni fəaliyyəti ilə bağlı açıqlama

“Azərkosmos” ASC-nin “Azersky” peyki vasitəsilə cari ilin iyun-iyul ayları ərzində Azərbaycanın işğal olunmuş ərazilərində təcavüzkar Ermənistan tərəfindən həyata keçirilən qeyri-qanuni fəaliyyətlərin monitorinqi nəticəsində Şuşa şəhərində “İsabulağı” ətrafında 0.46 hektar sahədə meşə zolağının qırılması aşkar edilib. Həmçinin, peyk təsvirləri vasitəsilə sözügedən ərazinin 0.85 hektar sahəsində yeni tikililər üçün planlama işlərinin aparıldığı qeydə alınıb.



Əvvəl (19 aprel 2018-ci il)

Sonra (4 iyun 2019-cu il)

Şuşada “İsabulağı” istirahət zonası ərazisində meşə qırılması və infrastruktur işlərinin aparılması, Azersky peykindən əldə olunmuş təsvir, 39° 44' 38" N, 46° 42' 35" E

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və “Azərkosmos” ASC-nin birgə mətbuat açıqlamasında məlumat verilir. “Məlum olduğu kimi, Ermənistanın işğal altındakı ərazilərimizdə törətdiyi qeyri-qanuni fəaliyyət, o cümlədən ekoloji terror nəticəsində meşə sahələri sürətlə deqradasiyaya uğrayır, həmin ərazilərdə yeni infrastruktur layihələri həyata keçirilir və təbii resurslar qanunsuz olaraq istismar edilir. “Azersky” təsvirləri vasitəsilə Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda qızıl yataqlarının qeyri-qanuni istismarı ilə yanaşı, Tərtər rayonunun Dəmirli mədən yatağının 740 hektar ərazisində geoloji kəşfiyyat, qazıntıhasilat işlərinin və yeni infrastruktur elementlərinin (yol, bina, qurğu və s.) tikintisinin aparıldığı da müəyyən edilib. Eyni zamanda, “Azersky” vasitəsilə aparılmış son monitorinqlər zamanı Azərbaycanın işğal olunmuş ərazilərində kənd təsərrüfatı sahələrinin qanunsuz istismarının davam etdirildiyi və genişmiqyaslı yanğınların törədildiyi müşahidə edilib. Təkcə Füzuli rayonunun təxminən 15.000 hektar sahəsində yanğınların törədildiyi qeydə alınıb.

Göründüyü kimi, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətini, o cümlədən təbii sərvətlərin istismarı və talan edilməsi, kənd təsərrüfatı və su ehtiyatları da daxil olmaqla sosial, iqtisadi və nəqliyyat infrastrukturunun dəyişdirilməsi, meşələrin qırılması, yanğınların törədilməsi və ətraf mühitə ziyan vuran digər əməllərini davam etdirir. Bu qanunsuz fəaliyyət Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarının işğalının davam etdirilməsi və möhkəmləndirilməsi, ərazilərimizin ilhaq edilməsi və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və mülklərinə geri qayıtmasının qarşısının alınmasına yönəlib. Beynəlxalq hüququn, o cümlədən beynəlxalq humanitar hüquq və insan hüquqları normalarını və Azərbaycan qanunvericiliyini kobud şəkildə pozaraq ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ və ətraf bölgələrində qanunsuz fəaliyyəti həyata keçirən Ermənistan, onun fiziki və hüquqi şəxsləri, eləcə də işğal olunmuş ərazilərimizdə qeyri-qanuni fəaliyyətdə iştirak edən bütün digər şəxslər və şirkətlər inzibati və hüquqi məsuliyyət daşıyırlar.

Ermənistan anlamalıdır ki, Azərbaycan ərazilərinin hərbi işğalı müvəqqəti xarakter daşıyır və bu torpaqların əvvəl-axır Azərbaycanın nəzarətinə qaytarılması qaçılmazdır. O cümlədən Azərbaycanın işğal olunmuş ərazilərinə təcavüzkar qüvvə tərəfindən vurulan zərər müvafiq beynəlxalq mexanizmlər vasitəsilə hesablanacaq, Ermənistan Azərbaycan tərəfinə vurduğu zərəri ödəyəcək və bütün qeyri-qanuni əməllərinin hüquqi cavabını verəcək”,- deyə açıqlamada bildirilir.

# Mariya Zaxarova: Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir



Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir. AZƏRTAC xəbər verir ki, bu fikri Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova avqustun 9-da keçirdiyi brifinqdə səsləndirib. M.Zaxarova qeyd edib ki, Rusiya Dağlıq Qarabağ münaqişəsi üzrə sülh prosesinin hərtərəfli irəliləməsi məqsədilə öz köməyini göstərmək niyyətinə sadiq qalır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin statusu məsələsinə gəldikdə isə, Rusiya XİN-in rəsmi nümayəndəsi vurğulayıb ki, bu məsələdə Moskvanın mövqeyi dəyişməyib: Dağlıq Qarabağın statusu Azərbaycanla Ermənistan arasında danışıqlar yolu ilə müəyyən edilməlidir. Rusiya XİN-in rəsmisi əlavə edib: “Biz bu gün Ermənistan və Azərbaycan arasında təmas xəttində nisbi sakitlik müşahidə edilməsini məmnunluqla qeyd edirik. Bununla yanaşı, tərəflərin bir-birini müxtəlif məsələlərdə ittiham etməsi bizdə narahatlıq doğurur. Bu cür ritorika danışıqlar üçün əlverişli şərait yaranmasına və nəticədə kompromis əldə olunmasına kömək etmir”.

# XİN: Ukrayna vətəndaşlarının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Ukrayna vətəndaşları, Ukrayna Milli Rəqs Liqası Federasiyasının (FNDL) idarə heyətinin üzvü Qennadiy Xavkin, habelə Federasiyanın daha iki üzvü İqor Yaremenko və Timofey Çernenko Xarici İşlər Nazirliyinə rəsmi məktubla müraciət edərək, adlarının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı”na salınmamasını xahiş ediblər. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məktubda FNLD-in prezidenti Marina Kurbanaliyeva və Federasiyanın yuxarıda adları qeyd olunan üzvləri səfərlə əlaqədar təəssüf hissi keçirdiklərini ifadə edərək, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə, suverenliyinə və qanunlarına hörmət etdiklərini, habelə Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinə bilməyərəkdən səfər etdiklərini bildiriblər. Sözügedən şəxslər, həmçinin gələcəkdə işğal olunmuş ərazilərə bu kimi səfərlərdən çəkinəcəklərinə dair zəmanət veriblər.

Qennadiy Xavkin, İqor Yaremenko və Timofey Çernenkonun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və onların adlarının “Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı”na salınmamasına dair qərar qəbul edilib.

# Paşinyanın Xankəndi ritorikası: regionu faciəyə sürükləmək riski

Bir neçə gün öncə Xankəndidə "ümumerməni oyunları" adlandırılan, lakin məzmunu qeyri-müəyyən olan "tədbir"də Ermənistanın baş naziri Nikol Paşinyan çıxış edib. Ekspertlər onun əsəbi, inamsız çıxışında region üçün təhlükə yarada bilən notların olduğunu müəyyənləşdiriblər. Hətta Ermənistan müxalifəti baş nazirin fikirlərini "absurd xülya" adlandırıb. Məsələ ondan ibarətdir ki, N.Paşinyan yenə də Azərbaycan torpaqlarına Ermənistanın iddialarından bəhs edib və onu qanuni addım kimi təqdim etməyə çalışıb. Bu zaman onun məntiqsizliyi aydın görünüb. Bir tərəfdən, "Artsax müstəqildir" deyən və İrəvanın onun işinə müdaxilə etmədiyindən dəm vuran "küçə siyasətçisi", digər tərəfdən, indi Xankəndidə olan qondarma rejimi "qeyri-legitim" adlandırıb. Əlbəttə, həmin quldur rejim qeyri-legitimdir. Ancaq N.Paşinyanın nəzərdə tutduğu mənada deyil, real vəziyyət baxımından qeyri-legitimdir. N.Paşinyan isə həmin rejimə öz adamını başçı qoymaq məqsədi ilə belə danışıb. Bu da açıqca Ermənistanın qonşu dövlətin ərazisində separatçı rejim qurmaq, ona havadarlıq etmək və torpaqları işğal altında saxlamaq siyasəti yeritdiyini bir daha təsdiq edir. Bu tezislərin işığında N.Paşinyanın Xankəndi çıxışına təhlili yanaşmağa ehtiyac gördük.




## Rəsmi İrəvanın yalanlar silsiləsi: çax-çax baş ağrıdır...

Nikol Paşinyanın populist və xəyalpərvər "siyasətçi" olduğu məlum idi. Onun absurd xülyalara qapıldığına dəlalət edən faktlar da mövcuddur. Son davranışlarından biri isə siyasi cəhətdən çox naşı olduğunu təsdiqləyir. Doğrudur, indi siyasi realllğa uyğun olmayan addımlar atan liderlər az deyil. Bəzən, həqiqi mənada absurd hərəkətlər edir, fikirlər söyləyirlər. Lakin N.Paşinyanın hərəkəti həm də beynəlxalq hüquq qaydalarını açıq və kobud surətdə pozmaqdır və Ermənistanın real imkanlarına qətiyyən uyğun gəlməyən ifrat populist və səriştəsiz adamın davranışıdır.

Belə ki, demaqoq "küçə demokratı" Azərbaycanın işğal altında olan Xankəndi şəhərində separatçılar qarşısında çıxış edərək Dağlıq Qarabağın Ermənistana məxsus olduğunu deyib və "miatsum" - "birləşmə" şüarından istifadə edib. O, bu fikri Rusiyanın vassalı və forpostu olan Ermənistanın 2050-ci ilə qədər "müstəqil inkişaf xətti"ni şərh edərkən işlədib. Guya 2050-ci ilə qədər Ermənistan mövcud olacaq və müəyyən sahələrdə inkişaf əldə edəcək. Deyək ki, əhalisinin sayı 5 milyon olacaq, 10 texnoloji şirkəti yaranacaq və onların büdcəsi milyard dollara çatacaq və s. Onun söylədikləri hətta Ermənistan siyasətçiləri üçün o dərəcədə cəfəng və mənasız olub ki, "Paşinyan Marsda erməni koloniyası axtarır" kimi ifadələrlə onu lağa qoyublar.

Ekspertlər "demokratiya və azadlıq aşiqi"nin Xankəndidəki çıxışının siyasi ritorika və natiqlik səviyyəsi baxımından da çox primitiv olduğunu vurğulayırlar. O, gözünü kağızdan çəkməyib, əsəbi olduğu hiss olunub və səsində inamsızlıq açıqca görünüb. Bu isə N.Paşinyanın özünün dediklərinə inanmaması ilə yanaşı, separatçı-terrorçuların mövqeyində yeniliyin olmaması ilə də bağlıdır. Odur ki, Dağlıq Qarabağda yuva salmış terrorçu sürünün başçısı Bako Saakyan dolayısı ilə İrəvandan gəlmiş başabəla "demokrat"dan fərqli düşündüklərini ifadə etməyə çalışıb. Onun da nə düşündüyünün real siyasət üçün elə bir əhəmiyyəti yoxdur, ancaq İrəvanla Xankəndinin birgə hansı çaşqınlıq içində olduqlarının əyani nümayişidir.

Maraqlıdır ki, rəsmi İrəvanın düşdüyü ziddiyyətli və perspektivsiz durumu rusiyalı ekspertlər də etiraf edirlər. Onların etirafı N.Paşinyanın Moskvanın iradəsinə qarşı addım atmağa çalışması ilə bağlıdır. Buna baxmayaraq, belə bir vəziyyət İrəvan-Moskva xəttində soyuq küləklərin güclənməsi əlamətidir. Təbii ki, bunların arxasında nüfuz uğrunda aparılan oyunların mürəkkəb ssenarisi də dayana bilər.

Hər bir halda N.Paşinyan Qarabağa "ümumerməni oyunları" adlı "tədbir"də elə fikirlər söyləyib ki, özündən başqa kimsə qəbul etmir. Nə Xankəndidəki separatçı-terrorçular, nə Ermənistandakı siyasi müxalifət, nə də Moskvadakı erməni havadarları. Belə isə, erməni baş nazir hansı səbəblərdən bu dərəcədə absurd tezislər irəli sürüb?

Ekspertlərin bu sualla bağlı fərqli izahlarına rast gəlirik. Məsələn, rəsmi İrəvanın müharibə istəyi haqqında proqnoz verilir. Bundan başqa, Dağlıq Qarabağda separatçıların seçki öncəsi səs qazanmaq üçün manevrlərindən bəhs edənlər də var. Təbii ki, bu proqnozların hər birinin öz yeri və mənası vardır. Çünki erməni siyasəti daim məntiqsiz və başından böyük iddiaları ilə seçilib. Bütün bu incəliklərə və N.Paşinyanın Xankəndidəki sözlərinə qlobal geosiyasi proseslər kontekstində nəzər saldıqda, başqa məqamları da görə bilərik.

Hər şeydən öncə aydın olur ki, rəsmi İrəvanın istənilən qiymətləndirməsi sünidir. Ona görə yox ki, Ermənistanda intellektual səviyyəsi yüksək olan insanlar yoxdur. Əlbəttə, hər cəmiyyətdə olduğu kimi, orada da belə insanlar var. Lakin kimliyindən asılı olmayaraq, hər bir erməni siyasətçinin dünyagörüşü obyektivliyə deyil, qonşulara nifrətə əsaslandığından, yanlış məqsədlərə xidmət edir. Konkret olaraq, Azərbaycanla bağlı onlardan heç birinin nə obyektivliyi, nə siyasi səriştəsi, nə iradəsi, nə də rasional gücü çatmır ki, etiraf etsin: "Ermənistan Azərbaycan torpaqlarını işğal edib və erməni ordusu qeyd-şərtsiz bu torpaqlardan çıxmalı, Azərbaycan dövlətindən və xalqından rəsmən üzr istənməli, lazım olan təzminatlar ödənməlidir"!

## Erməni siyasətinin Paşinyan ləkəsi: regiona terror gətirmək cəhdi

Bunun əvəzində erməni siyasətçilər müxtəlif yalanlar uyduraraq dünyaya sırımağa çalışır, haqlı olanı haqsız göstərmək istəyir və burada da dolaşırlar. Mövqeləri bəsit və çox zəif görünür. Heç şübhə yoxdur ki, onların yanından havadarları bir addım kənara çəkilsələr, bütün erməni "siyasi rasionallığı", "erməni iradəsi", "erməni demokratiyası", "erməni qətiyyəti" sabun köpüyü kimi bir andaca darmadağın olar! Bunu ermənilərin havadarları onların özlərindən yaxşı bildiklərindən, kənara çəkilmirlər. Çünki partlayan sabun köpüyünün içindən məhz havadarların əsrlərdir apardıqları məkrli oyunların, hiylələrin qalıqları ətrafa üfunət kimi yayılacaq. Onda insanlar həqiqəti biləcəklər ki, bu da həmin dairələrə heç sərf etmir.

N.Paşinyan bu yanlış siyasi ritorikanın, havadar siyasi planlarının dalğası üzərində oynamağa çalışır. Ancaq tez-tez büdrəyir, ayağı sürüşür (ümumiyyətlə, ermənilərin ayağı qədimdən sürüşkəndir) və hətta havadarları üz-gözlərini turşudurlar. Bununla yanaşı, N.Paşinyanın "siyasi sürüşkənliyi"nin başqa əsası da mövcuddur.

Rəsmi İrəvan, faktiki olaraq, regionda qeyri-müəyyənlik yaratmağa çalışan, xalqları bir-birinə qarşı qoyan və Yaxın Şərqdən sonra Cənubi Qafqazda müharibə qığılcımlarını alovlandırmaq üzərində baş sındıran kənar qüvvələrə xidmət edir. Onun nitqinə diqqət etsək, görərik ki, o, sanki Dağlıq Qarabağda yeni müharibə arzulayır. Bilir ki, yeni müharibədə mütləq erməni ordusu məğlub olacaq, ancaq rəsmi İrəvan Qərbin və Rusiyanın daha güclü dəstəyini ala bilər. Çünki "regionda demokratiyanın beşiyi" və "Rusiyanın əsas dayağı" çökür. Bu məntiqlə Dağlıq Qarabağ münaqişəsi yeni şərtlər daxilində Qərb və Rusiyanın ortaq problemi olmağa transfer edilir ki, onun həlli üçün də fərqli fəaliyyət tələb olunur. Ermənilər bulanıq suda balıq tutmaqla Dağlıq Qarabağda işğalın ömrünü daha da uzada biləcəklərinə inanırlar.

Digər tərəfdən, Cənubi Qafqazda silahlı toqquşmalar yarada bilsələr, oradan İrana müdaxilə üçün əlavə bəhanə əldə edilir. Rəsmi Tehran son günlər region dövlətlərinə müraciət edərək bir-birinə hücum etməmək haqqında pakt imzalamağı təklif edib. N.Paşinyan isə əksinə, qonşu dövlətlərdən ən azı biri ilə (hələlik Azərbaycanla) müharibəyə səsləyən fikirlər söyləyir, addımlar atır. Məsələn, Ermənistandan Dağlıq Qarabağa Azərbaycandan icazə almadan yol çəkməyə çalışır və s. Bu, İrəvanın regiona müharibə ab-havası gətirməsi deyilmi? Əgər Ermənistanla Azərbaycan arasında müharibə yaransa, onda Tehranın təklifi havada qalır.

Burada daha bir məqamı da vurğulamalıyıq. Azərbaycan işğal altında olan ərazilərini istənilən üsulla azad etməkdə qərarlıdır. Lakin hər şeyin zamanı var və beynəlxalq hüquq normaları mövcuddur. Bu baxımdan Azərbaycanın hərbi əməliyyatlara başlaması beynəlxalq hüququn bütün şərtləri daxilində olacaq. O başqa məsələdir ki, erməni işğalçıları təxribat əsasında regionu qarışdıra bilər, kənar qüvvələrin buraya müdaxiləsi üçün bəhanə yaradar, bölgədə ixtilafın və terrorun vüsət almasına zəmin hazırlayacaq şantaj xarakterli silahlı toqquşma yaradar. Bu halda region sözün həqiqi mənasında alova, xaosa bürünər və proseslər bölgənin hər bir xalqına zərər verər. Məhz bu baxımdan N.Paşinyan bütün regionun ziyanına olan naşı siyasi mövqe tutmaqla hər bir xalq üçün ziyankar rolunu oynayır.

Bütün bunlar N.Paşinyanın Xankəndidəki fikirlərinin həm də erməni xalqı üçün faciələr hazırladığını təsdiq edir. Ermənistan müxalifəti onda haqlıdır ki, N.Paşinyan absurd fikirləri ilə insanları növbəti dəfə aldadır. Bunun arxasında isə öz xalqını şantaj etdiyi aydın görünür. Ermənistan heç zaman Dağlıq Qarabağı özünə qata bilməz və oradakı qanunsuz rejimin ömrü çox deyil.

Azərbaycan istənilən variantda öz torpaqlarını azad etmək hüququna malikdir və bunu kimsə inkar edə bilməz. Ermənistan isə elə gücdə deyil ki, işğal etdiyi ərazilərdən silahlı qüvvələrini, ümumiyyətlə, çəkməsin. Deməli, N.Paşinyan real olaraq regionda dağıdıcı siyasət yeridir. Onun kənar qüvvələrə quyruq bulaması məlum idi, indi isə açıq görünür ki, bu proses daha təhlükəli xarakter alır. Konkret desək, şeytanın Qafqazdakı marşına son verilməlidir!

**Newtimes.az**

# Xalqımız əmin-amanlıq şəraitində Qurban bayramını qeyd edir

***Qurban bayramı İslam aləmində ən müqəddəs bayramlardan biridir. Xeyirxahlığın, bərabərliyin və fədakarlığın simvoluna çevrilən Qurban bayramını xalqımız tolerant mühitdə, multikultural dəyərlərə önəm verildiyi bir dövlətdə qeyd edir. Mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün insanların sərbəst fəaliyyət göstərdiyi Azərbaycanda xalqımız islam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramını təmtəraqla keçirir.***



Bu gün ölkəmizdə 2000-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, demək, bu, artıq Azərbaycanda tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan müxtəlif qurumlar hər bir millətə - ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər vermiş olur. Əbəs deyil ki, dünyanın ən qədim məscidlərindən olan Şamaxı məscidi bizim məkanda hələ 743-cü ildə tikilib. Şəkidə olan Qafqaz Albaniyası kilsəsi tarixin daş abidəsinə çevrilib. Əgər dünyaya sülh mesajı ilə özünü təqdim edən Azərbaycanda qeyd etdiyimiz mühit olmasaydı, yəqin ki, Azərbaycan imici dünyada özünü doğrultmazdı. Bu, bizim ölkəmizdə mövcud olan ənənələrin, müsbət proseslərin nəticəsidir və onların yeni bir mərhələyə qalxmasına təkan verir. Bəli, Azərbaycan xalqı belə bir mühitlə ən əziz bayramlarından birini - Qurban bayramını qeyd edir. Bu bayram münasibətilə, hər il Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan xalqına təbrik məktubu ünvanlayır.

Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqının əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub-saxlayır. Hazırda minlərlə həmvətənimizin də aralarında olduğu milyonlarla müsəlman müqəddəs Həcc ziyarətində möhtəşəm həmrəylik nümayiş etdirir.

Məlumdur ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir.

Üç səmavi dinin-yəhudilik, xristianlıq və islamın hər üçündə müxtəlif formada qurbanlıq mövcuddur. Lakin islamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur. İslam dinində Qurban bayramı böyük bayram adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, mal-qara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq, evlərdə və qəbiristanlıqlarda dua oxunur və ehsan verilir.

Mənbələrdə göstərilir ki, insanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Qurban bayramı müsəlman ruhaniləri tərəfindən İbrahim peyğəmbərin (Ə) öz oğlu İsmayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən hadisə ilə əlaqələndirilir. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisənin başqa bir fəlsəfi-əxlaqi mənası da ondan ibarətdir ki, islam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. Çünki insan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqudur. Allah özünün yaratdığını öz yolunda qurban kəsilməsini qəbul etmir. Bu bayramın əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında, dişi heyvanların müstəsna rolu olduğuna görə, qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı, altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi islamda məsləhət görülmür.

Qurban kəsiləndə belə deyilməlidir: "Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - Allah üçündür".

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara və kasıblara paylamalıdır. Quranda yazılıb: "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". Qurban bayramı mənəvi-əxlaqi dəyərlərimizi özündə təcəssüm etdirərək, insanları hallalığa, paklığa və birliyə səsləyir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir və şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülüyü daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.

Kəsdiyiniz qurbanlar qəbul olsun! Qurban bayramınız mübarək.

***ZÜMRÜD BAYRAMOVA***

# İranlı nazir: "İran ilə Azərbaycan birgə investisiya fondu yaradacaqlar"



İran ilə Azərbaycan sığorta sahəsində əməkdaşlıq əlaqələrini genişləndirəcək və birgə investisiya fondu yaradacaqlar. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın İqtisadi işlər və maliyyə naziri Fərhad Dejpəsənd mətbuata verdiyi açıqlamasında deyib. Nazir bildirib ki, bu gün İran ilə Azərbaycanın münasibətləri yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin iqtisadi potensialı daha geniş əlaqələrin qurulması üçün imkan yaradır.

O diqqətə çatdırıb ki, sığorta sahəsində əməkdaşlıq əlaqələrinin qurulması vətəndaşların və şirkətlərin iş qurmaq istəklərinə köməklik göstərəcək. Onların əmlakı və maliyyə vəsaitlərinə dövlətlər zəmanət verəcək. Bu isə qarşılıqlı sərmayələrin qoyuluşunu artıracaq.

F.Dejpəsənd nəqliyyat sahəsində əməkdaşlığın davam etdiyini vurğulayıb. Qeyd edib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsas komponenti olan Qəzvin-Rəşt-Astara (İran)-Astara (Azərbaycan) dəmir yolunun çəkilişi davam edir. Bu yolun Qəzvin-Rəşt hissəsi istismara buraxılıb. Rəşt-Astara hissəsində isə işlər davam edir. Onun sözlərinə görə, qarşıdakı iki ildə Rəşt-Astara yolunun tikintisi başa çatacaq və İran ilə Azərbaycanın dəmir yolları sistemləri birləşəcək. Bu dəmir yolunun istifadəyə verilməsi ilə hər iki ölkənin qeyri-neft sektorunun inkişafına əsaslı təkan veriləcək. İranlı nazir onu da bildirib ki, dövlətlər arasında birgə beynəlxalq investisiya fondunun yaradılması məsələsi də müzakirə edilir.

# Bakıda "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri keçiriləcək




Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş silsiləvi bayram tədbirləri davam edir. Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, avqustun 14-də Dənizkənarı Milli Parkda Dövlət Bayraq Meydanının yaxınlığında "Azərbaycan Sərhəd Mühafizəsi: dünən, bu gün və sabah" mövzusunda bayram tədbiri keçiriləcək.

Bayram tədbirində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Sərhəd Mühafizəsinin son illərdə inkişafı və əldə etdiyi xidməti nailiyyətlər haqqında ictimaiyyət geniş məlumatlandırılacaq, şəhər sakinlərinə, xüsusən də gənclərə və yeniyetmələrə Azərbaycan Respublikasının dövlət sərhədləri, sərhəd mühafizə tarixi, dövlət sərhədinin mühafizəsində tətbiq olunan hərbi və döyüş texnikası, silahlar və xüsusi sərhəd mühafizə avadanlığı haqqında ətraflı məlumat veriləcək.

Tədbirdə DSX-nin döyüş və zirehli texnikası, uçuş vasitələri, pilotsuz uçan aparatları, sərhəd gözətçi gəmiləri, ən müasir silah və sursatları, sərhəd mühafizə və digər xüsusi hərbi avadanlıqlar, dövlət sərhədinin mühafizəsində istifadə olunan mühəndis-texniki qurğular, sərhəd nəzarəti texnikası nümayiş olunacaq. Tədbir iştirakçılarına hərbi və döyüş texnikası ilə bilavasitə tanış olmaq, onların üzərində şəkil çəkdirmək, səhra mətbəxində əsgər yeməyindən dadmaq, interaktiv tirdə atəş açmaq, qısa müddət ərzində özlərini sərhədçi kimi hiss etmələri üçün şərait yaradılacaq.

Tədbir çərçivəsində Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestri, rəqs ansamblı və "NUR" vokal-instrumental qrupu geniş konsert proqramı ilə çıxış edəcək. Saat 09:00-dan 14:00-dək keçiriləcək tədbirə giriş sərbəstdir. Dövlət Sərhəd Xidməti şəhər sakinlərini və paytaxtımızın qonaqlarını bu tədbirdə iştiraka dəvət edir.

# Ermənistanda hərbi xidmətdən yayınmaq üçün rüşvət halları kəskin artıb



Ermənistanda hərbi xidmətdən yayınmaq üçün rüşvət halları kəskin artıb. AZƏRTAC erməni KİV-nə istinadla xəbər verir ki, bu məlumatı avqustun 9-da ölkənin Milli Təhlükəsizlik Xidməti yayıb. Qeyd olunur ki, orduya çağırış üzrə tibbi komissiyanın üzvlərinin və hərbi komissarlıqların zabitlərinin çağırış yaşına çatmış şəxslərdən yüksək məbləğdə rüşvət alaraq sağlamlıq vərəqələrini saxtalaşdırdıqları müəyyən edilib. Onlar bu yolla həmin şəxslərin hərbi xidmətə çağırış müddətini təxirə salıblar.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin əməkdaşları çoxlu sayda bu cür faktlar aşkar ediblər və hərbi komissarlıqların bir neçə zabiti həbs olunub. İri məbləğdə rüşvət almaqda təqsirləndirilən zabitlərdən biri hərbi komissarlığın digər iki keçmiş əməkdaşı ilə cinayət əlaqəsinə girərək hərbi komissiyanın üzvlərini də bu əmələ cəlb edib. Cinayətkar dəstə 9 çağırışçı və 4 hərbi mükəlləfiyyətli şəxsin sənədlərini saxtalaşdırıb və onlara hərbi xidmətdən möhlət əldə etməyə kömək ediblər. Həmin şəxslərdən bunun müqabilində 2 mindən 15 min dollaradək rüşvət alınıb. Bildirilir ki, bütün bu faktlar üzrə Ermənistan İstintaq Komitəsi tərəfindən cinayət işi qaldırılıb və cinayətkar qrupun üzvlərinə qarşı ittiham irəli sürülüb. Onların hamısı həbs edilib.

# TROLLARIN “KARUSEL” ƏMƏLİYYATI...

## “OSMANQIZI TV”, “AZƏRBAYCAN SAATI”, “AZAD SÖZ”, “AZADLIQ” QƏZETİ VƏ “MADE İN AZERBAİJAN” KANALLARINDA SAXTA DƏSTƏK GÖRÜNTÜSÜ YARADAN ŞƏBƏKƏ İFŞA EDİLDİ

***Antimilli fəaliyyətlərinə görə anti-Azərbaycan yönümlü fondlardan külli miqdarda qrant və ya ianə alan Əli Kərimli, Sevinc Osmanqızı, Qənimət Zahid, Tural Sadıqlı, Məhəmməd Mirzəli və digərlərinin “youtube” və “facebook” üzərindən həyata keçirdikləri saxtakarlıqların ifşası prosesi davam etməkdədir. Bundan əvvəlki yazılarımızda “Osmanqızı TV”, “Azərbaycan saatı”, “Azad söz”, “Made in Azerbaijan” və “Azadlıq” qəzeti “youtube” kanallarındakı “like”, “baxış” və “abunəçilik” göstəricilərinin saxta olduğunu faktlarla sübut etdik, bu işə nə qədər pul xərclədiklərini, hansı sayt və proqramlardan istifadə etdiklərini üzə çıxardıq. Nə Q.Zahid, nə T.Sadıqlı, nə də M.Mirzəli gətirilən arqumentlərə cavab verib vəziyyətin əksinə olduğunu iddia edə bilmədilər.***





Yalnız S.Osmanqızı özünü təmizə çıxarmağa cəhd etdi, ancaq yenidən ifşa olundu. Axı faktlar qarşısında nə deyəsən?... Eyni zamanda, onların saxta “abunəçilik” əməliyyatlarının nəticəsi olaraq, kanallarındakı canlı yayımlara izləyici sayının heç 1 faizinin də baxmadığını isbatladıq. Ortaya faktlar qoyuldu, sadə riyazi hesablamalar aparıldı və müxtəlif kanallar üçün nəticə 0,3 - 0,6 faiz aralığında oldu. Bütün bunlar bir daha göstərdi ki, Azərbaycanın ictimai-siyasi həyatının autsayderlərinin fikir və düşüncələri kimi, fəaliyyətləri də başdan-başa yalan və saxtakarlıq üzərində qurulub... Bugünkü yazımızda isə “Osmanqızı TV”, “Azərbaycan saatı”, “Azad söz”, “Made in Azerbaijan” və “Azadlıq” qəzeti “youtube” kanallarında moderatorluq edən, şablon rəylər yazaraq kütləvi dəstək görüntüsü yaradan, ümumi sayı 60-70 nəfərdən artıq olmayan troll şəbəkəsinin “karusel” üsulu ilə fəaliyyət göstərdiyi faktlarla sübut edilib.

Əvvəla ondan başlayaq ki, əsasən Avropada məskunlaşmış mariginallardan, adı çəkilən kanalların “jurnalisti” kimi Azərbaycanda fəaliyyət göstərən köstəbəklərin tanışlarından və cəbhəçilərdən ibarət olan bu “troll zənciri” eyni mənbədən idarə olunur. Həftənin 7 gününü daha çox “Azərbaycan saatı” və “Osmanqızı TV” kanallarında veyillənərək “kütləvi dəstək” görüntüsü yaradan şəbəkə tapşırıq əsasında ara-sıra “Azadlıq” qəzetinin “youtube” kanalında da peyda olur.





Bir neçə ay öncəyədək “Azərbaycan saatı” və “Osmanqızı TV”-də canlı yayımlar, demək olar ki, üst-üstə düşdüyündən, trollar arasında narazılıqlar da yaranmışdı. İki kanalda eyni zamanda trolluq etməyin çətinliyi və dəstək görüntüsünün zəif olması Q.Zahidlə S.Osmanqızını razılığa gəlməyə məcbur etmişdi. O vaxtdan etibarən “Azərbaycan saatı”nda, bir qayda olaraq 20:00-da, “Osmanqızı TV”-də isə 22:30-dan sonra canlı yayıma çıxmağa başladılar. Bu səbəbdəndir ki, 60-70 troll müxtəlif adlar altında hər iki kanalda fəaliyyət göstərə bilir.





Beləliklə də, tez-tez “hakimiyyət trolları” ifadəsindən istifadə edən Əli Kərimlinin, S.Osmanqızının, Q.Zahidin özlərinin “karusel” prinsipi ilə işləyən trol şəbəkəsini aşağıda təqdim edəcəyimiz siyahı ilə ifşa edəcəyik. Bununla da aydınlaşacaq ki, “troll ordusunu” əslində kim saxlayır. Trolları 2 qrupa bölmək olar: moderatorlar və adi trollar. Moderator trolların vəzifəsi canlı yayımı nəzarətdə saxlamaq, əks rəyləri silmək və belə şərh yazanları bloklamaq, öyrədilmiş adamların efirə zənglərini təşkil etməkdir. Adi trollar isə çoxsaylı saxta profillərdən primitiv şərhlər yazmaqla, verilişi “like” etməklə (bəyənməklə) və paylaşmaqla məşğul olurlar.

Aşağıdakı şəkillərə diqqətlə baxmaqla trolların yerdəyişməsini və fəaliyyət xəritəsini izləyə biləcəksiniz. Əgər təqdim etdiyimiz şəkillərin fotoşop olmasına şübhə yaransa, fotolar üzrə eyni videolara daxil olub gerçək mənzərə ilə tanış ola bilərsiniz. Beləliklə:



# TROLLARIN "KARUSEL" ƏMƏLİYYATI...

## "OSMANQIZI TV", "AZƏRBAYCAN SAATI", "AZAD SÖZ", "AZADLIQ" QƏZETİ VƏ "MADE İN AZERBAİJAN" KANALLARINDA SAXTA DƏSTƏK GÖRÜNTÜSÜ YARADAN ŞƏBƏKƏ İFŞA EDİLDİ




1. Sevinc Osmanqızının "Osmanqızı TV" kanalında:

- Moderator trollar: "Yunus Emre", "NURA Həsənova", "Adminka Adow";

- Adi trollar: "repke REPKE", "FERRUX ELIYEV", "SABİNA", "Zzz.Salman"(05.08.2019 tarixində birgünlük moderator olublar), "Roma memmedov", "ZEMA ZEYNALİ", "Azadlıq Yolu#Qorxdular!", "Nasur Memmedov", "Züleyxa Ağayeva", "Qedir Cabbarov", "Günay Məmmədli", "b dizayner", "sade insan", "Leyla İbragimova", "ovçu cəfərli", "Zeynəb Məmmədli", "Mammad Mammadli", "Nicat Nizamov", "zabil Ağazadə" və s.

2. Qənimət Zahidin "Azərbaycan saatı" kanalında:

- Moderator trollar: "HÜSEYN AŞİQİ", "Xalq Duzgunov", "Günay Məmmədli", "Vetenim Azeebaycan", "İlkin Dadaşov", "Zeynəb Məmmədli", "ZEMA ZEYNALİ", "Hər Şey Azərbaycan Üçün", "Nasur Memmedov";

- Adi trollar: "Züleyxa Ağayeva", "FERRUX ELIYEV", "SABİNA", "Roma memmedov", "ovçu cəfərli", "Muxaliv Genceli", "Nizami Abbasov", "Qedir Cabbarov","FU AD", "Leyla İbragimova", "sade insan", "b dizayner", "Zema Zema" və s.

3. Natiq Ədilovun idarə etdiyi "Azadlıq" qəzeti "youtube" kanalında:

- Moderator trollar: Natiq Ədilov kanala auditoriya toplamaq üçün hələ ki, moderatorlar təyin etməyib. Lakin canlı yayımlar zamanı "Hər şey Azərbaycan üçün", "Zeynəb Məmmədli", "Nasur Memmedov" əks rəylərin silinməsi və bloklanması üçün moderatorların təyin olunması xahişi ilə N.Ədilova müraciət edirlər.







- Adi trollar: "FERRUX ELIYEV", "Hər şey Azərbaycan üçün", "Zeynəb Məmmədli", "Nasur Memmedov", "ovçu cəfərli", "Rasim Azerbaycan", "YEGANE MURVETOVA", "repke REPKE", "Azerbaycan Azerbaycan", "Zema Zema", "Müxaliv Genceli", "Günay Məmmədli", "SABİNA" və s.

4. Tural Sadıqlının "Azad söz" kanalında:

- Moderator trollar: Tural Sadıqlı da Natiq Ədilov kimi hələ moderatorlar təyin etməyib. Lakin canlı yayımlar zamanı "Zeynəb Məmmədli", "Nasur Memmedov" dəfələrlə əks rəylərin silinməsi və bloklanması üçün moderatorların təyin olunmasını dəfələrlə Tural Sadıqlıdan xahiş ediblər.




- Adi trollar: "zabil Ağazadə", "Nizami Abbasov", "Nicat Nizamov", "Mammad Mammadli", "Nasur Memmedov", "Muxaliv Genceli", "ovçu cəfərli","HÜSEYN AŞİQİ", "Günay Məmmədli", "Azadlıq Yolu#Qorxdular!", "Zzz.Salman", "Zeynəb Məmmədli", "Qedir Cabbarov", "FU AD", "Rasim Azerbaycan", "Roma memmedov", "Adminka Adow", "b dizayner", "SABİNA" və s.

5. Məhəmməd Mirzəlinin "Made in Azerbaijan" kanalında:

- Moderator trollar: "Adminka Adow", "Hər Şey Azərbaycan Üçün", "/////////. Wuwalı", "Universal Tv", "MuHaMMeD PrO", "Brock Lesnar";

- Adi trollar: "Nasur Memmedov", "NURA Həsənova", "Xalq Duzgunov", "Zeynəb Məmmədli", "ZEMA ZEYNALİ", "FERRUX ELIYEV", "Azerbaycan Azerbaycan", "Roma memmedov", "Vetenim Azeebaycan", "Züleyxa Ağayeva", "Muxaliv Genceli", "Günay Məmmədli", "ovçu cəfərli", "YEGANE MURVETOVA", "Zzz.Salman" və s.

Siyahıdan da gördüyünüz kimi, ləqəbləri qeyd edilən trollar bu 5 "youtube" kanalı üzrə hərəkət edərək, öz "şərəfli missiyalarını" yerinə yetirirlər. Diqqətinizə təqdim etdiyimiz şəkillərdən aydın şəkildə görünür ki, radikal müxalifətin trol zəncirinin halqalarını təşkil edənlər əsasən eyni şəxslərdir. Onlardan bəziləri 2, başqaları 3, digərləri 4, bir qismi isə bütün kanallarda "fəaliyyət göstərir". Məsələn, "Osmanqızı TV"-də moderator olmuş "Cim-bom 1905" ləqəbli trol "Azadlıq" qəzeti kanalında da rəy yazır. Və ya "Osmanqızı TV"-nin moderatoru "NURA Həsənova" eyni zamanda "Made in Azerbaijan"da da trolluq edir. Onu bəzən "Azərbaycan saatı" və "Azadlıq" qəzeti kanallarında da görmək mümkündür. "Osmanqızı TV" kanalının digər moderatoru "Adminka Adow" "Made in Azerbaijan" kanalında adminlik etməklə yanaşı, "Azad söz" kanalında da trolluq edir.




Eyni zamanda, "Azərbaycan saatı" kanalının moderatorlarından "HÜSEYN AŞİQİ" "Azad söz" kanalında, "Nasur Memmedov", "Günay Məmmədli" və "Zeynəb Məmmədli" paralel olaraq "Osmanqızı TV", "Azadlıq" qəzeti, "Azad söz" və "Made in Azerbaijan" kanallarında, "Vetenim Azeebaycan", "Xalq Duzgunov", "İlkin Dadaşov" "Made in Azerbaijan" kanalında, "ZEMA ZEYNALİ" "Osmanqızı TV" və "Made in Azerbaijan" kanallarında, "Hər Şey Azərbaycan Üçün" isə "Made in Azerbaijan" və "Azadlıq" qəzeti kanallarında da həm trolluq, həm də adminlik edirlər.

"/////////. Wuwalı", "Universal Tv", "MuHaMMeD PrO", "Brock Lesnar" ləqəbli trollar isə "Made in Azerbaijan" kanalının fərdi moderatorlarıdır.

Fəaliyyətlərinə "qiymət verilsə", hazırda "Əməkdar troll - moderator" adına "Nasur Memmedov", "Günay Məmmədli", Zeynəb Məmmədli və "Hər Şey Azərbaycan Üçün" layiq görülə bilər. Lakin "Adminka Adow", "ZEMA ZEYNALİ" da həmin "fəxri ada" iddialıdırlar. Moderatorların sayına görə kanalları sıralamış olsaq, ilk yeri 9 moderatorla "Azərbaycan saatı" tutur, növbəti yerlərə 6 moderatorla "Made in Azerbaijan" və 3 moderatorla "Osmanqızı TV" sahiblənirlər. "Azadlıq" qəzeti və "Azad söz" kanalları daha geniş auditoriya toplamaq üçün hələ ki moderator təyin etməyiblər.




Ardı Səh. 10

# TROLLARIN "KARUSEL" ƏMƏLİYYATI...

## "OSMANQIZI TV", "AZƏRBAYCAN SAATI", "AZAD SÖZ", "AZADLIQ" QƏZETİ VƏ "MADE İN AZERBAİJAN" KANALLARINDA SAXTA DƏSTƏK GÖRÜNTÜSÜ YARADAN ŞƏBƏKƏ İFŞA EDİLDİ

Əvvəli Səh. 9

Moderatorlarla yanaşı, adi trolların da sıralaması var. Belə ki:

- İki kanalda trolluq edənlərin siyahısında "repke REPKE", "Azadlıq Yolu#Qorxdular!", "sade insan", "Leyla İbragimova", "Mammad Mammadli", "Nicat Nizamov", "zabil Ağazadə", "Nizami Abbasov", "FU AD", "Zema Zema", "Rasim Azerbaycan", "YEGANE MURVETOVA", "Azerbaycan Azerbaycan" yer alır.
- Üç kanalda trolluq edənlərin siyahısına"Zzz.Salman", "Qedir Cabbarov", "b dizayner", "Züleyxa Ağayeva" daxildir.
- Dörd kanalda trolluq edənlərin, başqa sözlə, "əməkdar troll" adına iddia edənlərin sırasında "FERRUX ELIYEV", "Roma memmedov", "SABİNA", "Muxaliv Genceli" yer alır.
- "Əməkdar troll" adına layiq olanların, yəni 5 kanalın hamısında trolluq edənlərin siyahısında isə hələ ki "ovçu cəfərli" təkdir.

"Bəs bu trol - moderatorların və adi trolların saxta dəstək görüntüsü yaratmaqdan başqa hansı funksiyaları var?" - deyə sual edə bilərsiniz.

Yuxarıda qeyd edildiyi kimi, moderatorlar canlı yayım zamanı "like" və "abunə" üçün xahişlər edir, əks fikirləri silir, blok edir, efirə zəng etmək üçün öyrədilmiş şəxsləri müəyyənləşdirir, bəzən yalvarış dolu xahişlər edirlər ki, efirə zəng etsinlər. Ümumən götürdükdə, muzdla çalışan moderator - trollar həddən artıq savadsız və dözümsüzdürlər. Aparılan müşahidələr göstərir ki, bir çox hallarda moderatorlar qonağın kimliyini, hətta adını belə bilmirlər. Məsələn, "Azərbaycan saatı" kanalının moderatoru "HÜSEYN AŞİQİ" Fuad Qəhrəmanlı ilə Fuad Əhmədlini bir-birindən ayırd edə bilmir. Yaxud, həmin kanalın başqa bir moderatoru "Hər şey Azərbaycan üçün" Emin Əhmədbəyovla Emin Zivərbəyovu fərqləndirməyi bacarmır.



Eyni zamanda, onların moderator kimi polemika aparmaq, yaxud diskussiyaya nəzarət etmək bacarıqları da "0"-ın altındadır: əks fikir görən kimi dərhal rəyi silir, yazan şəxsi isə bloklayırlar. Fərqli fikir yazanları blok etdikdən sonra bu moderatorlar "filankəsi blokladım", "filankəsin səsini kəsdim" deyərək qürrələnirlər də. Bu da, təbii ki, onların intellektinin çox aşağı səviyyədə olmasından xəbər verir.

İnsaf naminə qeyd etmək lazımdır ki, moderator-trolların işi çox "ağırdır". Birincisi, moderator adına yüksəlmək istəyənlər ya uzun müddət trolluq etməli, ya da Məhəmməd Mirzəlinin, Qənimət Zahidin, Sevinc Osmanqızının tanışı olmalıdırlar. Adi trollardan fərqli olaraq, onlar uzun müddət kanalın canlı efirində qalmalı, rəysilmə və bloklama işini yüksək səviyyədə reallaşdırmalıdırlar. Məsələn, "Osmanqızı TV" kanalının moderatoru olmuş "Kasıb insan" etiraf edir ki, bəzən Sevinc Osmanqızının göstərişi ilə səhərədək kanalda keşik çəkməyə məcbur olub.

Moderatorlarla yanaşı, adi trollar da canlı yayımlara və statik videolara tənqidi fikir yazanları küçə söyüşləri ilə təhqir edirlər. Onların intellektual səviyyəsi moderatorlardan da aşağıdır. Belələri canlı efirdə rəy sayı çox görünsün deyə kanalları tez-tez dəyişməklə, fərqli adlar altında "istefa", "salam", "trolları rədd edin", "yaşasın Əli bəy", "Qənimət bəy ürəkdir", "gözəl Sevinc xanım" kimi primitiv ifadələr yazır, hakimiyyət əleyhinə təhqirlər yağdırırlar. Bir qisim trollar da var ki, canlı efir zamanı, əsasən, məişət söhbətləri edir, hətta kanaldan əks cinsin nümayəndəsi olan "həmkarları" ilə tanış olmaq üçün istifadə edirlər...




Beləliklə, dağıdıcı müxalifətin nəzarətindəki "youtube" kanallarında saxta dəstək görüntüsü yaradan, təhqiredici rəylər yazan, fərqli fikrə dözümü olmayan troll şəbəkəsi bu cür ifşa edildi. Əminik ki, yuxarıda adları çəkilən moderator və adi trollar özlərində güc tapıb "Cim-bom 1905" və "Kasıb insan" kimi bu zəncirin həlqəsi olmaqdan əl çəkəcəklər. Anti-Azərbaycan şəbəkəsinin çirkli pullarından onlara ayrılan 100-150 manatdan, antimilli qüvvələrin əlində oyuncağa çevrilməkdən imtina edəcək, heç olmasa bundan sonra cəmiyyətin yararlı üzvü olmaq üçün cəhd edəcəklər...

P.S. Yazıdakı bəzi məlumatların dəqiqləşdirilməsində kömək göstərdiklərinə görə moderator trollardan olan tanışlarımıza təşəkkür edirik...

**_Ramil Vəlibəyov,_**
**_YAP Nizami rayon təşkilatı GB sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru_**

# Gizli sənədin xarici KİV-lərə sızdırılması erməni klanlarını bir-birinə vurub

***Ermənistanla Qarabağ erməniləri arasında davam edən gizli, yaxud açıq savaşlar bu dəfə 2008-ci ildə baş vermiş qanlı 1 mart hadisələri fonunda cərəyan etməyə başlayıb. Belə ki, buna səbəb BBC-nin Rusiya bürosunun sözügedən hadisələrlə bağlı gizli sənədin ictimailəşdirilməsi, o cümlədən, nümayiş iştirakçılarının məhz Qarabağdan gətirilmiş silahlı qruplar tərəfindən prezident administrasiyasının zirzəmisində mənzil qərargahları qurub, güllələborana tutması faktıdır. Onu da xatırladaq ki, prezident seçkilərindən sonra meydanlara axışanlar Robert Koçaryanın seçkilərdə uduzduğunu, Levon Ter-Petrosyanın isə qalib gəldiyini iddia edərək, nəticələrin saxtalaşdırıldığını bildirirdilər.***

Beləliklə, onsuz da İrəvan erməniləri ilə Qarabağ erməniləri arasında səngiməyən və illərə söykənən gərginlik hazırda da davam etməkdədir.

Başqa tərəfdən, bu gün həmin məsələnin xarici KİV-lərin əlinə düşməsi də kəskin reaksiyalar doğurur. Burada, Nikol Paşinyanın müvafiq dövlət qurumlarında boşluqlara nəzarət etməməsi ilə bağlı ittihamlar səslənədirilir, ümumiyyətlə, həmin informasiyanın xarici mətbuata sızdırılması dövlətçiliyin təhlükəsizliyinin lazımi qaydada qorunmaması ilə əlaqələndirilir. Daha dəqiq desək, hətta Paşinyan hökumətinin daxilində fəaliyyət göstərən adamlar da həmin hadisənin iqtidarın dayaqlarının laxladılması kimi qiymətləndirirlər.



### Qarabağ erməniləri Nikolun Xankəndidəki "miatsum" şüarını planlaşdırılmış cəhd adlandırırlar

İrəvan və Qarabağ klanlarının qarşıdurmasına daha bir səbəb Nikol Paşinyanın bir neçə gün öncə Xankəndidəki mitinqdə "miatsum" şüarını səsləndirib, "Qarabağ Ermənistanındır vəssəlam" bəyanatını verməsidir. Çünki tanınmamış "DQR" rəhbərliyi həm də belə iddia edirlər ki, Paşinyan həmin bəyanatı vəziyyətin daha da gərginləşdirilməsi üçün verib və eyni zamanda, separatçı rejimdə keçiriləcək saxta prezident seçkilərində öz adamının seçilməsi üçün planını işə salıb. Bununla da, erməni baş nazir "DQR"də mövcud olan klanı məhv edərək, orada şəxsinə xidmət edəcək İrəvan mənşəli ermənini təyin etmək istəyini gizlətməyib.

Əlbəttə ki, baş verən hər bir hadisənin bir-biri ilə bağlılığı var və bu bağlılıqlar bilavasitə iki klan arasında baş verən qarşıdurmaların üzdə olan göstəriciləridir. Əgər nəzərə alarsaq ki, qarşıdurmalarda daha gərgin, barışmaz savaşlar gedir, bu zaman hadisələrin get-gedə dərinləşəcəyini istisna etmək olmaz.

### Tramp bu məsələdə onlara "od qoydu"

Misal üçün, davam edən savaşın növbəti mənşəyi ABŞ-ın "DQR"ə humanitar yardım adı altında göndərdiyi maliyyə axınını dayandırmasıdır. Hətta ermənilərin Amerikadakı güclü lobbilərinin olmasının, eyni zamanda həmin lobbilərin ermənipərəst konqresmenlər tərəfindən dəstəklənməsi reallığının olmasına baxmayaraq, Tramp iqtidarının bu qərarı verməkdə israrlılıq nümayiş etdirməsi, ümumiyyətlə, qərarın dəyişdirilməməsi faktı bilavasitə Nikol Paşinyanın "töhfəsi" olaraq qiymətləndirilir. Belə ki, "DQR"in separatçı rejiminin rəhbərliyində təmsil olunan şəxslər Ermənistanın baş nazirinin xarici siyasətdə heç bir səriştəyə malik olmadığını, devirdiyi Serj Sarkisyan rejiminin vaxtında həmin maliyyələrin ilbəil artdığını xatırladır, bununla İrəvanın erməni klanını sözügedən qərarın verilməsində əsas günahkar hesab etdiklərini bildirirlər. Necə deyərlər, Tramp bu məsələdə onlara "od qoydu". Ümumiyyətlə, bu məsələlər hər iki erməni cinahının yaxın vaxtlarda böyük savaşa girəcəkləri anonsunu verməkdədir.

Sonuncu və ən əsas məqam isə, Azərbaycan reallığıdır. Çünki Nikol Paşinyanın "miatsum" şüarı həm Ermənistanın, həm də işğal altındakı Qarabağ rejiminin bütün planlarını alt-üst edir. Beynəlxalq konvensiyalara və BMT-nin müvafiq qətnamələrinə əsaslanaraq, Azərbaycanın istənilən anda öz torpaqlarını azad etmək haqqına malik olması istər işğalçıların, istərsə də separatçıların nəfəsini kəsir. Ona görə də, Qarabağın erməni klanı hər mənada Ermənistan hakimiyyətinə qarşı çıxır, bununla da "özümüz öz başımızın çarəsinə baxarıq" timsalında rəsmi İrəvandan canlarını qurtarmağa cəhdlər göstərirlər. Ancaq hər iki tərəfdən məsələlərin analizini dərindən araşdırdığımız zaman biz, onların - həm işğalçı Ermənistanın, həm də separatçı "DQR" rejiminin Azərbaycan qarşısında məğlub duruma düşdüklərinin şahidlərinə çevrilirik.

**_Rövşən NURƏDDİNOĞLU_**

# Ölkəmizdə Beynəlxalq Gənclər Günü qeyd olunur

***12 avqust Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Bu günün elan olunması gənclərə göstərilən diqqətin bir nümunəsidir. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Dünya ölkələrində olduğu kimi, Azərbaycanda da Beynəlxalq Gənclər Günü qeyd olunur. Müasir həyatımızda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla davam etdirilən dövlət-gənclər siyasəti, məhz Ulu Öndər Heydər Əliyevin gənclər siyasətinin məntiqi davamıdır.***



Azərbaycan müstəqillik əldə etdikdən sonra dövlət-gənclər siyasəti prioritet istiqamətlərdən birinə çevrilib. Ayrı-ayrı dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədilə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə 1994-cü ildə yaradılmış Gənclər və İdman Nazirliyi qısa bir vaxtda dövlət-gənclər siyasətinin istiqamətlərini müəyyənləşdirərək, uğurla həyata keçirməyə başlamışdır. Ümummilli Liderin 1995-ci ildə irəli sürdüyü Gənclər Forumu ilə bağlı təşəbbüsündən sonra 1996-cı ildən başlayaraq, hər il Azərbaycan gənclərinin forumları keçirilmişdir. Forumlarda Ulu Öndər Heydər Əliyevin proqram xarakterli nitqlərində gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilmiş, gənc nəslin hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulmuşdur. 1996-cı il fevralın 2-də keçirilən I Forumda Dahi Öndər Heydər Əliyev gənclər qarşısında tarixi bir vəzifə qoydu: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir".

Ulu Öndər Heydər Əliyev I Forumdan sonra gənclərlə aparılan işin nəzərəçarpacaq dərəcədə canlandığını nəzərə alaraq, 1997-ci ildə imzaladığı Sərəncamla tədbirin keçirildiyi günü - fevralın 2-ni Azərbaycan Gənclər Günü elan etmişdir. 1999-cu ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanan "Dövlət-Gənclər Siyasəti haqqında" Fərman bu sahəyə dövlət səviyyəsində böyük önəm verildiyinin daha bir təzahürü kimi qiymətləndirilir. "Dövlət-gənclər siyasəti haqqında" Fərman çox geniş spektri - gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtın təşkili problemlərinin həlli, hüquqların müdafiəsi, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakı ilə bağlı məsələləri əhatə edir. Ulu Öndər Heydər Əliyev çıxışlarının birində üzünü gənclərə tutaraq demişdir: "Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!"

Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti bu gün yeni mərhələyə qədəm qoyub. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini qəbul etdiyi bütün qərarları ilə sübut edir.

Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən Dövlət Proqramını, 2005-ci ildə gənc ailələrə güzəştli ipoteka kreditinin verilməsi barədə imzaladığı Fərman Azərbaycan dövlətinin gənclərə göstərdiyi qayğını özündə təcəssüm etdirir. Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkə həyatındakı fəallığını daha da artırmışdır. Gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili, gənclərə psixoloji reabilitasiya, hüquqi və informasiya yardımlarının göstərilməsi məqsədilə "Gənclər Evi" sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması da elə gənclərə dövlət qayğısıdır. İlk "Gənclər Evi" 2006-cı ildə Ağsu rayonunda fəaliyyətə başlasa da, bu gün onların sayı 30-dan artıqdır.

Bu gün nəinki Azərbaycanda, hətta xaricdə belə yüksək intellektə, gücə malik Azərbaycan gəncləri var. Hər bir əlamətdar gündə yaşadıqları ölkənin küçələrində Azərbaycan bayrağını ucaldırlar. Azərbaycan reallıqlarının dünyaya çatdıran, onun həqiqətlərinə göz yuman insanlara reallıqları təqdim edən məhz gənclərdir. Azərbaycan gəncliyi öz yerini tapmaq, dövlətimizin inkişafına töhfəsini vermək istiqamətində ciddi uğurlar əldə edib.

Son illər gənclər qarşısında qoyulan bütün məsuliyyətli işlər gənclər tərəfindən yüksək səviyyədə həyata keçirilir. Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. Buna sübut olaraq gənc idmançılarımızın qələbələrini, gənc siyasətçilərimizin uğurlarını, gənc əsgərlərimizin qəhrəmancasına Vətən qarşısında xidmətlərini və digər sahələri nümunə çəkmək olar. Bu, Azərbaycan gənclərinə yaradılan şəraitdir. Bu reallıqların əsasında dayanan dövlətin gənclər siyasəti, onlara maddi və mənəvi cəhətdən göstərdiyi qayğıdır. Azərbaycanın durmadan inkişafı, dünya dövlətlərinə inteqrasiya prosesinin sürətlənməsi, iqtisadi yüksəliş kimi nailiyyətlər gəncliyin qarşısında prespektivlər açmaqla yanaşı, onları stimullaşdırır.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında Qarabağ müharibəsi veteranları və əlillər ilə görüş olub

***Avqustun 9-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Qurban bayramı ərəfəsində Qarabağ müharibəsi veteranları və əlillər ilə görüşüb.***

Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, AHİK sədri görüşdə iştirak edən müharibə iştirakçılarını, onların ailələrini İslam dünyasının müqəddəs bayramı olan Qurban bayramı münasibətilə təbrik edib. S.Möhbalıyev bildirib ki, ölkə rəhbərliyi tərəfindən müharibə veteranları və şəhid ailələrinə göstərilən ehtiram və qayğı artırılır, onların həyat şəraitinin, sosial təminatlarının yaxşılaşdırılması üçün konkret tədbirlər görülür. Sosial islahatlar paketinin tərkib hissəsi kimi, bu il Prezidentin aylıq təqaüdü şəhid ailələri üçün 242 manatdan 300 manata çatdırılıb, müharibə əlilləri üçün də sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, I qrup əlilliyi olanlara (o cümlədən I qrup müharibə əlillərinə) qulluq edənlər və müharibə veteranları üçün Prezidentin aylıq təqaüdü təsis edilib. Şəhid ailələri və müharibə əlillərinə avtomobil verilir, onların mənzillə təminatı davam etdirilir.



Deputat diqqətə çatdırıb ki, Ermənistanın baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərinə səfər edərək orada təxribatçı açıqlamalar verməsi regionu yeni təhlükələrlə üzbəüz qoyur. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini ayaq altına atır və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir. Yaranmış vəziyyətə görə tam məsuliyyət Ermənistan rəhbərliyinin üzərindədir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, Azərbaycan öz ərazilərinin işğalı ilə heç zaman barışmayacaq və işğal olunmuş torpaqlarımızın azad olunması və öz evlərindən zor gücünə didərgin salınmış məcburi köçkünlərimizin bu torpaqlara geri qayıtmasını təmin etmək üçün var gücü ilə səylərini davam etdirəcək. Son illərdə görülmüş işlər, hərbi sahədə aparılan islahatlar, hərbi gücümüzün artırılması, həm siyasi meydanlarda, həm də döyüş meydanlarında qələbələr bizi daha da ruhlandırır, daha da gücləndirir. İqtisadi güc də, hərbi güc də bizim tərəfimizdədir. Ordumuzun döyüş hazırlığı və təminatı yüksək səviyyədədir. Ən müasir silahlarımız və texnikalarımız var. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqəti sayəsində son illərdə Azərbaycan Ordusu istər döyüş qabiliyyətinə, istər maddi-texniki bazasına, istərsə də müasir silah-sursat arsenalına görə dünyada lider yerlərdən birini tutur.

AHİK sədri Qarabağ müharibəsi veteranlarının və əlillərin hər zaman AHİK-in diqqət mərkəzində olduğunu deyib. Onlarla mütəmadi olaraq görüşlərin keçirildiyini, problemlərinin həllinə xüsusi həssaslıqla yanaşıldığını, istirahət və müalicələrinin təşkili istiqamətində atılan addımları da diqqətə çatdırıb. Görüşdə iştirak edənlər ölkəmizdə geniş vüsət alan sosial müdafiə tədbirlərindən danışıb, həssas qrupların rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımları yüksək qiymətləndiriblər. Diqqət və qayğı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlıqlarını ifadə ediblər. Sonda görüş iştirakçılarının hər birinə bayram münasibətilə maddi yardımlar olunub.

# Monrealda Azərbaycanın yeni diaspor təşkilatı yaradılıb

***Kanadanın Kvebek əyalətinin Monreal (Montreal) şəhərində yeni diaspor təşkilatı - "Monreal Kanada-Azərbaycan Cəmiyyəti" (The Azerbaijani Society of Canada in Montreal) yaradılıb.***

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Monrealda yaşayan həmvətənlərimizi öz sıralarında birləşdirən bu təşkilat artıq Kanada qanunlarına uyğun olaraq rəsmi qeydiyyatdan keçib. Yeni təşkilatın yaradılmasında məqsəd Kvebek əyalətinin müxtəlif şəhərlərində yaşayan soydaşlarımızı bir araya gətirmək, Azərbaycan mədəniyyətini və tarixini, milli-mənəvi dəyərlərimizi yerli əhali arasında təbliğ və təşviq etmək, onların diqqətini ölkəmizin keçdiyi yola və inkişafına cəlb etməkdir.

Soydaşlarımızın qərarı ilə təşkilatın təsisçisi Rəna Müslümova həm də onun ilk sədri seçilib. Qeyd edək ki, R.Müslümova uzun illərdir Kanadada keçirilən müxtəlif tədbir və festivallarda milli adət-ənənələrimizin təbliği ilə məşğuldur.



# Gənclik millətimizin gələcəyidir

*YAP İsmayıllı rayon təşkilatında bu mövzuda tədbir keçirilib*



Dünən YAP İsmayıllı rayon təşkilatı, İsmayıllı rayon icra hakimiyyəti və gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə 12 avqust Beynəlxalq Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova qeyd etdi ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir. Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır.



Natiq qeyd etdi ki, bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Daha sonra çıxış edən İsmayıllı RİH-nin məsul işçisi Namiq Kərimov, Ailə, Qadın və Uşaqlara Dəstək Mərkəzinin direktoru Lətifə Əliyeva, Peşə Tədris Mərkəzinin direktoru Zaur Muradov, Gənclər və İdman İdarəsinin rəisi Taleh Salehov və başqaları qeyd etdilər ki, ölkəmizdə məqsədyönlü şəkildə həyata keçirilən işlərin nəticəsi olaraq bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə rəhbəri tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini toplamalı, vətənin inkişafı üçün səylə çalışmalı, öz siyasətində onlara arxalanan ölkə Prezidentinin etimadını həmişə doğrultmalıdır.

**ZÜMRÜD**

# Fəaliyyətini bərpa etmək istəyən fiziki şəxs hara müraciət etməlidir?




Fəaliyyətini bir müddət dayandıran fiziki şəxs onu yenidən bərpa etmək istəyirsə, hara müraciət etməlidir? Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, fiziki şəxs fəaliyyətini müvəqqəti dayandırdığı halda, onu aktivləşdirmək üçün ilkin olaraq müvafiq qaydada tərtib olunmuş "Vergi ödəyicisinin, onun filialının, nümayəndəliyinin və ya başqa təsərrüfat subyektinin (obyektinin) fəaliyyətinin və digər vergi tutulan əməliyyatlarının bərpası haqqında arayış"ı təqdim etməlidir.

Həmçinin gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) və ya istifadəçi kodu, parol və şifrə olduqda, Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı üzərindən qeyd olunan əməliyyatları elektron qaydada yerinə yetirmək mümkündür. Eyni zamanda, fiziki şəxsin yenidən uçota alınması (ləğv edilmiş VÖEN-in bərpası) üçün isə "Fiziki şəxsin vergi uçotu haqqında ərizə" ilə qeydiyyatda olan vergi orqanına və ya həmin vergi orqanının əhatə dairəsində olan vergiödəyicilərinin xidmət mərkəzinə müraciət edilməldiir.

# Bakıda "Qədim Avropaya səyahət" adlı musiqi gecəsi təşkil olunacaq




Sentyabrın 19-da M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının nəzdində Kamera və Orqan Musiqisi Zalında "Qədim Avropaya səyahət" adlı musiqi gecəsi təşkil olunacaq.

AZƏRTAC xəbər verir ki, Ü.Hacıbəyli XI Beynəlxalq Musiqi Festivalı çərçivəsində reallaşacaq gecədə "D`accordo" barokko ansamblı bir sıra dünya şöhrətli bəstəkarların əsərlərini ifa edəcək. Qeyd edək ki, builki festival çərçivəsində 40-dək tədbirin təşkili nəzərdə tutulur. Festivalda ABŞ, Rusiya, Çin, Türkiyə, İtaliya, Özbəkistan, Belarus, Bolqarıstan, Ukrayna və Gürcüstandan tanınmış musiqi kollektivləri iştirak edəcək.

# Mübariz Əhmədoğlu: "Tbilisidəki son mitinqin əsas təşkilatçısı Paşinyan imiş"



Tbilisidə son mitinqlər ciddi fəsadlı oldu. Mitinq təşkilatçılarının iradəsi də göz qabağındadır. Gürcüstanın keçmiş Baş naziri, de-fakto idarəedici B.İvanişvilinin evi və ofisi artıq mitinqlərin coğrafiyasına daxil edildi. Bu mitinqlər təhlil olunduqca yeni təfərrüatları üzə çıxır: Tbilisidəki ermənilər mitinqin təşkilində və aqressivliyində xüsusi rol oynayıblar. Mitinqdə həbs olunanlardan biri Minas Minasyan tələbə və yaxud sadəcə erməni deyilmiş, Ermənistanın Baş Naziri Nikol Paşinyanın ən yaxın silahdaşlarından biri imiş. N.Paşinyanın digər silahdaşı Serqo Qalstyan mitinqlərin aqressiv forma almasında xüsusi canfəşanlıq göstərib. Nikol Paşinyanın mitinqin təşkilində iştirakına və maraqlı olmasına dəlalət edən daha bir fakt yaxınlarda aşkarlandı. Onun məxməri inqilab üzrə yaxın tərəfdaşlarından biri David Petrosyan Yerevanda həbs olunmuşdu. Tbilisidə mitinqlər ərəfəsində o həbsdən azad edildi və Tbilisiyə göndərildi. David Petrosyanın həbsdən azad olunması ilə bağlı xahiş-müraciəti Karapet Badalyan etmişdi. K.Badalyan Arsen Xaratyanın bacısının həyat yoldaşıdır. A.Xaratyan və həyat yoldaşı ABŞ-ın Gürcüstandakı səfirliyində çalışırlar. Hər ikisi "Soros" fondundan aldığı qrant hesabına mətbu orqanı nəşr etdirirlər. A.Xaratyan Paşinyan Baş nazir təyin olunduqdan dərhal sonra Baş nazirin xarici siyasət məsələləri üzrə müşaviri təyin olundu. KTMT baş katibi Y.Xaçaturovun həbsinə təhrik etməsi faktı aşkarlanandan sonra Paşinyan Rusiyanın qorxusundan A.Xaratyanı vəzifədən azad etdi. Beləliklə, Gürcüstanda xaosun yaranmasında ermənilərin iştirakı şəksizdir, xaosun əsas sifarişçisi də Soros fondudur. Çünki adı çəkilən bütün ermənilər Soros fondunun sıx əməkdaşlarıdır və Nikol Paşinyana birbaşa bağlı olan şəxslərdir. Soros fondunun siyasəti ziddiyyətlidir. Bu fond hal-hazırda ABŞ və Aİ-nin rəhbərliyi ilə mübarizə vəziyyətindədir. Çox paradoksaldır ki, Soros fondunun İranla sıx əlaqələri var. 3 ay bundan öncə İranın Xarici İşlər naziri Cavad Zərif Soros fondu ilə İranın əlaqələrinin çox yüksək səviyyədə olduğunu etiraf etdi və bununla qürur duyduğunu bildirdi. Gürcüstanda xaosun nəticələri bəllidir. Bütövlükdə Cənubi Qafqaz regionu xaosa bürünür, Qərbin Mərkəzi Asiya regionu ilə əlaqələri kəsilir. Bu Qərb üçün birbaşa zərbə deməkdir. Soros fondunun belə zərbədə maraqlı olması çox mümkündür. Eləcə də yaranmış proseslərdən Rusiyanın da bəhrələnməsi də çox ehtimallıdır. Soros fondu bu yolla Rusiya ilə Qərb arasında Cənubi Qafqaz üzərindəki qarşıdurmanı bir az da genişləndirmək və gücləndirmək istəyir. N.Paşinyan bilir ki, Gürcüstandakı xaos Ermənistanın ziyanınadır. Paşinyan bu işi başlayırsa sonda ermənilərin uduşlu vəziyyətdə olacağına təminat alıb. Rəsmi Tbilisinin Gürcüstan ərazisində ermənilərin fəaliyyətinə xüsusi diqqət vermələri hədsiz vacibdir. Gürcüstandakı sabitlikdə yalnız iki dövlət- Gürcüstan və Azərbaycan Respublikası maraqlıdır. Qalan bütün dövlətlər Gürcüstanın zəifliyindən istifadə edib, daxildə vəziyyəti gərginləşdirməklə ümumilikdə Cənubi Qafqaz regionuna böyük zərbə vurmaq istəyirlər. Ona görə ən vacib məsələ Gürcüstanın ermənilərı, Ermənistanı neytrallaşdırmasıdır. Bu istiqamətdə ən radikal addımlar atılmalıdır. Gürcüstan üçün daha ciddi fəsadlar yarana bilər.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müşavirə keçirilib





Avqustun 9-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində (SHXÇDX) Prezident İlham Əliyevin bu il iyunun 3-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncamının icrası ilə əlaqədar qurumun aparatının, eləcə də yerli idarə, şöbə və bölmə rəislərinin iştirakı ilə müşavirə keçirilib.

Xidmətdən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycanın Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi, iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışın yekunları ilə bağlı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ay ərzində həyata keçirilən tədbirlər təhlil edilib. Xidmət rəisi, general-leytenant Arzu Rəhimov müşavirədə iyul çağırışının yekunlarına, xidmət tərəfindən görülmüş işlərə və qarşıda duran vəzifələrə dair geniş hesabat məruzəsi ilə çıxış edib.

İdarə, şöbə və bölmələrin xidməti fəaliyyətini qiymətləndirən general-leytenant Arzu Rəhimov xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların hərbi qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli həqiqi hərbi xidmətə çağırılması, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilmiş işlərdən və qarşıda duran vəzifələrdən danışıb. Xidmət rəisi xüsusi vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Xidmətin qarşısında qoyduğu tapşırıqların yüksək səviyyədə icra edilməsi məqsədilə hər bir zabit, gizir, əməkdaş xidməti fəaliyyətinin yüksəldilməsi istiqamətində əlindən gələni əsirgəməməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında həyata keçirilən uğurlu islahatlar nəticəsində bütün sahələrdə olduğu kimi, SHXÇDX-də idarəetmə müasir dövrün tələblərinə uyğunlaşdırılır.

Xidmət rəisi vətəndaşların qəbulu və müraciətlərinə baxılması, vətəndaşların problemlərinə qayğı ilə yanaşılması, vətəndaş məmnunluğunun təmin olunması işinin davam etdirilməsinin zəruriliyini qeyd edib. Məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, insanlara layiqli xidmət göstərilməsi, etik davranış qaydalarına əməl olunmasının vacibliyi bir daha vurğulanıb. Müşavirədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində yol verilmiş nöqsanlar təhlil edilib, çatışmazlıqların aradan qaldırılması və gələcəkdə təkrarlanmamasına dair göstərişlər verilib. Müşavirəyə yekun vuran general-leytenant Arzu Rəhimov görüləcək işlər və xidməti fəaliyyətin daha yüksək səviyyədə təşkil olunması barədə tapşırıqlarını verərək bildirib ki, qurumun hər bir əməkdaşı bundan sonra da üzərinə düşən vəzifələrini şərəf və ləyaqətlə yerinə yetirməlidir.

TƏRS BAXIŞ

# Qənimət Zahidin Əli Kərimli "sevdası"

*Onlara bu "sevdanı" bağlayan nədir?*

***Fransada "siyasi mühacir" adı altında xımır-xımır erməni pulu yeyib, üstündən su içən Qənimət Zahidin zaman-zaman AXCP sədri Əli Kərimlini "Youtube" kanalındakı sərsəm proqramlarının canlı yayımlarına çıxarması arxasında yaranan ilk sual belədir: Onun Ə.Kərimliyə olan "sevdası" nə ilə əlaqəlidir? Deyə bilərik ki, Q.Zahid də AXCP funksioneridir və illər boyu adıçəkilən partiyanın mətbuat orqanında fəaliyyət göstərib və s. Buna sözümüz yoxdur. Bəs indi, yəni Q.Zahid Fransada erməni lobbisinin pulundan basıb-yeyir və onun nə yeyib-içməyinin Ə.Kərimliyə aidiyyatının olmadığı halda (bəlkə də var, amma bunu araşdıracağıq) AXCP sədrinin tez-tez Qənimətin verilişlərində nə azarı var?***



## Olmaya Qənimət Zahid Əli Kərimlinin qara gözünə, qara qaşına, daha nə bilim qara nəyinəsə aşiq olub?

Düzdür, onların hər ikisi uzun illərdir ki, Azərbaycan dövlətinin, dövlətçilik maraqlarının əleyhinə çıxış edirlər, hər ikisi erməni qazanından eyni qaşıqla haram horra içirlər, hər ikisi xainlik, şərəfsizlik, mənəviyyatsızlıq və s. bənzər statusları bir yerdə qalın boyunlarında gəzdirirlər. Amma Ə.Kərimlinin həftə səkkiz mən doqquz Q.Zahidin canlı yayımlarına qatılıb, oxlov udmuş kimi oturaraq "odlu-alovlu" çıxışlar etməsi arxasında nə dayanır? Olmaya Q.Zahid Ə.Kərimlinin qara gözünə, qara qaşına, daha nə bilim qara nəyinəsə aşiq olub? Bax, onu bilmirəm, amma bildiyim budur ki, vaxt var idi onların arasındakı düşmənçilik Ermənistan ermənisi ilə Qarabağ erməni arasındakı düşmənçiliyə bənzəyən həddə qədər gəlib-çatmışdı. Məsələn, xatırlatmaq olar ki, bir vaxtlar Soros fondu "Azadlıq" qəzetinə filan qədər pul ayırmışdı və Ə.Kərimli həmin pulu Q.Zahiddən istəmişdi, Q.Zahid də bu pulu Ə.Kərimliyə verməkdən imtina etmişdi. Hətta AXCP sədrinin Fransaya minnətçi göndərdiyi şəxsləri belə əliboş yola salaraq, həmin pullar vasitəsi ilə özünə iş quracağını bildirmişdi. Bax, ondan sonra Ə.Kərimli "Azadlıq" qəzetinin bağlanmasında Q.Zahidin xüsusi rolunun olduğunu bəyan edərək, onunla yollarını ayırmışdı, yəni düşmənə çevrilmişdi.

## Amma di gəl...

Bu gün Q.Zahidin erməni lobbisinin və xüsusilə, Sorosun sifarişi ilə həyata keçirdiyi "Azərbaycan saatı" adlı verilişində milli və dövlətçilik maraqlarımız əleyhinə səsləndirdiyi anoripl fikirləri heç də Ə.Kərimlinin fikirlərindən geri qalmır, hətta onun fikirləri daha azğın, quduzluq təsiri bağışlayır. Amma di gəl...

Di gəl ki, Q.Zahid bu gün də düşməni hesab etdiyi Ə.Kərimliyə olan "sevdasını" tükəndirmir. AXCP sədrini zaman-zaman canlı yayımına çağırıb, onunla birgə qarşılarına qoyduqları kirli məqsədləri həyata keçirməyə çalışır. Bir el məsəlində olduğu kimi, "çevir tatı, vur tatı", ya da "köhnə hamam köhnə tas" prinsipi ilə "çənə döyürlər". Fəqət, belə bir "siyasətin", belə bir "müxalifətçiliyin" 26 ildir ki, heç bir nəticə vermədiyi gözlər önündədir. Bunun da izahı var...

## Qənimət Zahid hər canlı yayıma görə Əli Kərimliyə nə isə ödəyirmi?

Artıq Soros fondu Q.Zahidin köhnə və naftalin iyi verən ampluadan çıxmadığını görür, bunu ona pul buraxan digər tərəf - erməni lobbisi də yaxşı bilir. Ona görə də, yaxın vaxtlarda Qənimətin qənimət bildiyi qrantların kəsilməsi gözlənilir. Qənimət də qrant krantının bağlanacağından ehtiyatlanaraq, son anda düşməni Ə.Kərimlinin ətəyindən yapışır ki, bəlkə pulburaxanları bunu "yenilik" kimi qəbul edib, "ana müxalifət lideri"nin canlı yayıma çıxdığı ilə əlaqələndirsinlər. Ancaq gəlin-görək ki, Q.Zahid hər canlı yayıma görə Ə.Kərimliyə nə isə ödəyirmi? Deyilənə görə, ödəməyinə ödəyir, amma bu ödəmələr Kərimlinin cibinə deyil, onun Londondakı papasının gül balası sayılan Türkelin şəxsi xərclərinə gedir. Onsuz da Ə.Kərimli qazandığının əsas baza hissəsini dumanlı Albiona göndərir, arvadı Samaranın biznesinə, həm də oğlunun yeyib-içmək partilərinə. Qənimətin verdiyi pullar isə, əlbəttə ki, bütün bunlara qane olmaz. Ona görə də, "nə oldusa min bərəkət" deyən AXCP sədri tez-tez Qənimətin canlı yayımlarına çıxır. Həm onun, həm də bunun işləri yoluna qoyulur.

## Qənimətin erməni aşnalarının və Soros dayısının da gözləri açılıb

Bax, Q.Zahidin Ə.Kərimliyə olan "sevdası" qeyd edilən amillərə söykənir. Ancaq bu biznesin də sonunun çatacağı gün uzaqda deyil. Çünki yuxarıda da qeyd edildiyi kimi, artıq Qənimətin erməni aşnalarının və Soros dayısının da gözləri açılıb. Kor-kor, gör-gör ki, həyata keçirilən heç bir layihə istədikləri nəticələrə cavab vermir. Hətta ən ləyaqətsiz, yalan, şər, böhtan xarakterli çıxışları belə, Azərbaycan hakimiyyətinə heç bir təsir göstərmir. Azərbaycan iqtidarının dayaqları o qədər möhkəmdir ki, deyilən hər bir söz, atılan hər bir iftira yalnız milçək vızıltısının təsirini bağışlayır. Bu isə, pulburaxanların məşum planlarına cavab vermir. Bu baxımdan, Q.Zahid yaxşı olardı ki, Ə.Kərimliyə olan "sevdasını" başa çatdırsın, yoxsa biznesi vaxtından əvvəl bankrota uğrayar...

**Rövşən NURƏDDİNOĞLU**



## Dəyərsiz liderlərin boşboğazlığı

**RƏFİQƏ**

***Nədənsə, Azərbaycana düşmən kəsilən kömür kimi qara qüvvələr ağızlarından düşən hər bir kəlmələrində, hər bir ifadələrində "YAP nə etdi ki, Azərbaycan üçün, xalq üçün?" tipli ağıldan kənar, mənasız suallar yağdırırlar. Bu gün bu dəyərsiz boşboğaz müxalifət ünsürlər tabeçiliyi altında olan mətbuat səhifələrində və sosial şəbəkələrdə onların diqtəsi ilə yazarlıq deyil, yozarlıq edən azyaşlı qələmkeş və mirzəcik tayfaları guya dünyanın müxtəlif filosoflarından, ya da ictimai-siyasi xadimlərindən sitatlar gətirərək öz köşə yazılarının ora-burasını o ki var bəzəyib-düzəyirlər.***

Nə bilim, dahi rus yazarı filankəsovski belə demişdi, qədim Çin filosofu fi-lan-kəs də elə ifadə etmişdi... Necə deyərlər, "çevir tatı-vur tatı" prinsipindən o tərəfə keçə bilməyən müxalifət köşədarlarının ağıllarına da gəlmir ki, YAP kimi nəhəng partiya zərurətdən yaranarkən, onların əksəriyyəti o zamankı "Malış" smesi yeyib, üstündən də əmzik əmirdilər. Yəni ən azından, onların bu barədə hap-gop etmələri yersizdir. Çünki YAP yarananda onların yaşları birikidən o tərəfə keçmirdi. Ona görə də yaşları qədər ... yesələr daha yaxşı olardı. Qaldı ki onların verdikləri sərsəm suala, belə bir cavab(lar) verəcəyəm. YAP Azərbaycan xalqı üçün əsl, həqiqi müstəqillik və azadlıq gətirdi. YAP yeganə partiyalardandır ki, yarandığı dövrdən az müddət sonra, yəni bir il ərzində müxalifət düşərgəsindən iqtidara gəldi. YAP-ın yaranması Azərbaycan xalqının dəstəyi nəticəsində baş verdi. YAP xalqın partiyasıdır. YAP Azərbaycanı AXC-Müsavat kimi xəyanətkar cütlüklərdən, satılmaqdan, parçalanmaqdan, məhv olmaqdan qorudu, hifz etdi. 25 il öncəki İsa Qəmbər, Əli Kərimli elə 25 il sonra da dəyişilməz qalaraq, müxalifətdəki dəyərsiz ömür səhifələrini vərəqləməklə məşğuldurlar. YAP öz gücü və qüdrəti ilə, xalqına güvənib, bu kimi xəyanətkarların hakimiyyətə gələrək yenidən Azərbaycanı didib-parçalamalarına, imkan vermir, verməyəcək də! BAX, BUDUR YAP, hörmətsiz müxalifət mirzəciklərinin bədbəxt liderləri!!!

Və bir də həyata daha real baxmaq lazımdır... Yoxsa Azərbaycanı gah filan ölkə, gah da behməkan ölkə ilə haqsız müqayisə edərək, binəva liderləri qarşısında beş-üç dollara görə oyunbazlıq etməyə başqa cür ad da vermək mümkün deyil. Müxalifət köşədarları lüğətlərdə axtarıb-tapdıqları əndrəbadi ifadələri yazmaqdansa, dahi filosofların kəlamlarının ucundan tutub, ucuzluqlara qədər getməkdənsə, Müsavat, AXCP kimi xəyanətkar partiyaların fəaliyyətlərini dəstəkləməkdənsə, öz haylarına qalsınlar. Hər kəs bilir ki, boş-boş guruldamaqdan heç nə çıxmayacaq. Hətta satıldıqları xarici ağaları da, əslində, belə guruldamaqlara fikir vermirlər. Ayrı-ayrılıqda AXCP-ni və Müsavatı "Azərbaycanın xilaskarı", ölkəni guya demokratiyaya və azadlığa qovuşduran alternativsiz qüvvələr adlandıran mirzəciklər boş-boş eyforiyalara qapılmaqdan başqa heç nə edə bilmirlər. Və müxalifətin işlətdiyi bu kimi ifadələr illərdir ki, xalqın başbeynini aparıb. Çünki bunlar öz yüngüllükləri ilə YAP-ın həqiqi ağırlığına tap gətirə bilmirlər.

İllərdir ki, "ha bu gün, ha sabah, ha birigün, ha indicə, bu saat hakimiyyətə gələcəyik" deyə özlərinə toxdaqlıq verən xain qüvvələr hələ də "gəlirlər ki, gəlirlər". Adama deyərlər ki, siz nə demokratiyadan istifadə edərək hakimiyyətə gələ bildiniz, nə də dağıdıcılıq yolu ilə iqtidara yiyələnə bildiniz. Yəni nə o yolla, nə də bu yolla heç bir zad etməyə gücünüz, qüdrətiniz çatmadı. İndi boş-boş danışıb, YAP-a qısqanc nəzərlərlə baxıb, həzmetməzlik nümayiş etdirməkdənsə, məncə, həyata daha real, daha açıq gözlə baxmağı bacarmaq lazımdır. Bacarmırsınızsa, onda bu da sizlərin öz probleminizdir...

## Qaradağda ölümlə nəticələnən yol qəzası baş verib



Qaradağ rayonunda ölümlə nəticələnən iki yol-nəqliyyat hadisəsi baş verib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, rayonun Lökbatan qəsəbəsi ərazisində Bakı şəhər sakini E.Cəbrayılov idarə etdiyi "Toyota" markalı avtomobillə yolu keçən 45-50 yaşlı kişini vurub.

Qaradağ rayonunun Sahil qəsəbəsi ərazisində isə Neftçala rayon sakini Ə.Kərimovun idarə etdiyi "KIA" markalı avtomobillə Sabirabad rayon sakini Novruz Novruzov vurulub. Hər iki piyada hadisə yerində ölüb. Faktlarla bağlı Baş İstintaq və Təhqiqat İdarəsi tərəfindən araşdırma aparılır.

## Böyük Kəsik-Bakı sərnişin qatarında 41 yaşlı kişi dünyasını dəyişib

ADY
Azərbaycan Dəmir Yolları QSC

Böyük Kəsik-Bakı sərnişin qatarında 41 yaşlı kişi dünyasını dəyişib. Hadisə ilə bağlı "Azərbaycan Dəmir Yolları" QSC məlumat yayıb. Bildirilib ki, dünən saat 00:18-də Böyük Kəsik-Bakı sərnişin qatarı Dəliməmmədli stansiyasında ləngiyib. Belə ki, vaqondakı sərnişinlərdən biri -1978-ci il təvəllüdlü Elşən Tanrıverdi oğlu Hüseynovun vəziyyəti pisləşib. Bu səbəbdən qatarın hərəkəti dayandırılıb və bələdçilər tərəfindən hadisə yerinə təcili tibbi yardım briqadası çağırılıb.

Lakin buna baxmayaraq Elşən Hüseynov dünyasını dəyişib. Yaxınlarının bildirdiyinə görə, mərhum uzun müddətdir xəstəlikdən əziyyət çəkib. Mərhumun nəşi hüquq-mühafizə orqanlarının əməkdaşlarına təhvil verildikdən sonra qatar saat 02:02-də təyinatı üzrə yola salınıb. Hadisə nəticəsində Böyük Kəsik-Bakı sərnişin qatarı 1 saat ləngimə ilə Bakı sərnişin stansiyasına çatıb.

# Qurultay ərəfəsi növbəti qalmaqal

*Arif Hacılı yenə də ittiham hədəfinə çevrilib*



***Son günlər Müsavat partiyasında funksionerlərarası baş verən qalmaqallar səngimək bilmir. Səbəbi isə qurultayərəfəsi "AKM"-nın yaranmasıdır. Bu barədə Müsavat partiyasının Məclis üzvü Könül Şamilqızı şəxsi feysbuk hesabında yazıb ki, qısa müddət sonra bu qurum Azərbaycana siyahılar göndərməyə başlayıb. Kimsənin tanımadığı adamların olduğu siyahıdakı şəxslərin partiyaya üzv edilməsi istənilib: "Avropanı dağıdan" təşkilatın siyahılarına bəzi Divan üzvləri qarşı çıxdılar. Buna baxmayaraq, Arif Hacılının israrları və çoxluqdakı Divan üzvlərinin səsləri ilə kimsənin tanımadığı o adamlar partiyaya üzv edildi. Əslində, Müsavat üzvü olmayan "AKM" üzvü ola bilməzdi. Avropadakı "moşenniklər" sıralarını belə genişləndirirdilər.***

K.Şamilqızı onu da bildirib ki, əvvəllər başqa partiyada olanlar da Müsavatdan keçmiş tarixlə arayış alıblar: "Sonra məlum oldu ki, Səbuhi Hümmətov deyə əvvəlcə müsavatçı, sonra Sülhəddin Əkbərin partiyasına üzv olan, ardınca Qubad İbadoğlunun yanında durub Müsavatı söyən bir adam keçmiş tarixlə Müsavat üzvü arayışı alıb. Təbii ki, avtomatik olaraq da başqan aşiqi olub".

## Arif Hacılının sirləri üzə çıxır

K.Şamilqızı, həmçinin onu da bildirib ki, bu rəzalətlərlə birlikdə bəzi partiya üzvləri Müsavat üzvlərinin olduğu qapalı feysbuk qrupunda "AKM" ilə bağlı şəffaflıq tələb edirlər: "AKM" üzvlərinin bu tələbdə bulunan Divan və Məclis üzvlərinə reaksiyası "Siz kimsiniz ki, hesabat verək" oldu. İlham Həsənin və digərlərinin bu barədəki skreenləri durur, arzu edilərsə, paylaşaram. Beləliklə, Müsavatda "paçkayla" üzvlük, arayış və "AKM" qaynaqlı qeyri-şəffaflıqla bağlı olduqca sərt mübahisələr başladı. Və istisnasız hər dəfə mübahisəni başladanlar A.Hacılını dəstəkləyən, çoxunun ya özü, ya hansısa yaxını tərəfindən Avropaya göndərilmiş bir neçə troll idi. Bu troll hücumlarından sonra məlum oldu ki, Nemət Kərimli Razim Əmiraslanlının əlinə tutuşdurduğu bir siyahıyla mən daxil 5 nəfərin Məclis üzvlüyündən çıxarılmağını istəyib. Bir neçə nəfər, o cümlədən, İkram İsrafil etiraz eləyib. Nəticədə, məsələ müzakirəyə çıxarılmayıb".

K.Şamilqızı bildirib ki, A.Hacılı "AKM" üzvlərini qorumaya alıb: "O gün A.Hacılının əmriylə "AKM" üzvləri qorumaya alındı - xaricdə yaşayan müsavatçılar adıyla biz qrupdan atıldıq. "AKM"-çilər üçün A.Hacılı ayrı whatsapp qrupu yaratdı - yəqin ki, sirləri çölə düşməsin deyə".

## Növbəti qalmaqallı qurultay ərəfəsi

Bu, heç də təəccüb doğurmur. Çünki bundan əvvəlki qurultay da qalmaqala səbəb olmuşdu. Müsavatın sabiq başqanı İsa Qəmbərlə A.Hacılı arasında "mehriban" münasibət olsa da, İ.Qəmbər üçün qurultay zamanı açıq-aşkar Hacılının təbliğatını aparmaq, hər kəsi ona səs verməyə çağırmaq.

İ.Qəmbər bu vasitə ilə Müsavatın parçalanacağını da yaxşı bilirdi və bu amil ona sərf edirdi. Daha doğrusu, İ.Qəmbər istefalar, narazılıqlar fonunda özünü Müsavatın "alternativsiz başqanı", A.Hacılını isə bacarıqsız başqan kimi qələmə verməyə çalışırdı. Nəticədə isə, Müsavatın başıbəlalı 7-ci qurultayından bu günə kimi İ.Qəmbər bu prinsiplə "saman altdan su yeritməkdə " davam edir. Yenidən başqanlıq kürsüsünə nail olmaq üçün partiyadaxili ziddiyyətlərin daha da kəskinləşməsinə. Beləliklə, göründüyü kimi, "İ.Qəmbər getdi, Müsavat dağıldı" prinsipi sabiq başqana hava-su kimi lazımıydı və o, yendən başqan seçilmək üçün bu amili özünə qalib olaraq seçib. Bunu isə zaman göstərəcək.

***Rəfiqə HÜSEYNOVA***

# Əli Kərimlinin adamları Ştetina vasitəsi ilə erməni lobbisinə işləyirlər

*Ortadakı faktlar, dəlil və sübutlar bu həqiqəti tam çılpaqlığı ilə ortaya qoydu*

***Əgər biz bu gün AXCP sədri Əli Kərimlinin, eləcə də "Milli Şura"nın xarici ölkələrdəki emissarları, "siyasi mühacir" adı altında fəaliyyət göstərənlərin birbaşa erməni lobbisi və lobbiyə dəstək verən müxtəlif təşkilatların rəhbərləri, təmsilçiləri ilə sıx əlaqədə olduqlarını deyiriksə, deməkki, faktlara, dəlil və sübutlara əsaslanaraq bunu edirik. Bu baxımdan, tam əminliklə qeyd etmək olar ki, Kərimlinin "siyasi fəaliyyəti"nin əsas istiqamətlərindən biri də birbaşa erməni lobbisinə dəstək göstərən təşkilatlar, həmçinin, həmin təşkilatlardan yararlanaraq, anti-Azərbaycan şəbəkəsinin sifarişlərini canla-başla yerinə yetirməkdən ibarətdir.***




## Jaromir Ştetina 2017-ci ilin fevralında Brüsseldə Azərbaycan əleyhinə keçirilən dinləmələrdə söz sahibi olub

"SƏS" Media Qrupu olaraq, bu xüsusda apardığımız növbəti araşdırmadan sonra fakt-lara əsaslanan qənaətə gəlmişik ki, Ə.Kərimlinin adamları ermənipərəst "People in Need" təşkilatının rəhbərliyi ilə sıx əlaqədədirlər. Bəs kimdir bu təşkilatın rəhbəri? Həmin təşkilatın rəhbəri uzun illərdir işğal altındakı ərazilərimizə qanunsuz səfərlər edərək, qondarma və separatçı "DQR" rejimi ilə təmaslar quran çex mənşəli Jaromir Ştetinadır. Yəni bu adam dəfələrlə Azərbaycan əleyhinə yönələn addımları ilə yadda qalıb. Misal üçün, hələ 2017-ci ildə fevralın 6-da Brüsseldə, Avropa Parlamentinin qərargahında Azərbaycanla bağlı, daha dəqiqi Azərbaycan dövlətinə qarşı dinləmələrdə iştirak edən Jaromir Ştetina həmin vasitə ilə həm erməni lobbisinin sifarişlərini həyata keçirib, həm də Azərbaycandakı radikal və dağıdıcı təfəkkürə malik xain müxalifətə tərəf qucaq açdığını sübuta yetirib.

## Jaromir Ştetina - Bako Saakyanın dostu!

Beləliklə, bəlli olan budur ki, Ştetina həm də Azərbaycanda arzuolunmaz şəxs olaraq birbaşa ölkəmizə, dövlətimizə, xalqımızın maraqlarına qarşı nə varsa, hər şeyi və hər kəsi dəstəkləyir. Əbəs deyil ki, onun "DQR"ə səfərlər edib, separatçı rejim rəhbərliyi, əsasən, Bako Saakyanla görüşdüyünü sübut edən çoxsaylı faktlar, fotolar, yazı və dəlillər mövcuddur. Belə olan halda, Jaromir Ştetina bir tərəfdən Bako Saakyanla, işğalçı ermənilərlə görüşüb Azərbaycan əleyhinə fəaliyyətini davam etdirirsə, onun bu fəaliyyətini bilən, dərk edən Ə.Kərimlinin yaxın ətrafı - Q.Zahid, N.Ədilov də ayrılıqda həmin əməkdaşlığı sürdürürsə, buradan hansı nəticəyə gəlmək olar?

## Qənimət Zahid, Natiq Ədilov və başqaları birbaşa ermənilərlə mütəşəkkil şəkildə Azərbaycan dövlətinin əleyhinə fəaliyyət göstərirlər

Əlbəttə ki, yuxarıda qeyd edilən fikirlər bu iddianı tamamlayır. İlk növbədə, Ə.Kərimli və ətrafı, yəni Avropadakı emissarları Q.Zahid, N.Ədilov və başqaları birbaşa ermənilərlə mütəşəkkil şəkildə Azərbaycan dövlətinin əleyhinə fəaliyyət göstərirlər. Bunun üçün Avropada çoxsaylı görüşlər keçirir və birgə planlar, qrant layihələri hazırlayıb erməni lobbisi ilə məsləhətləşirlər və s. Məgər bundan artıq hər hansı bir faktlara da ehtiyac qalırmı? Yaxud bu sübutlara milli xəyanətdən başqa daha hansı adları vermək olar? Bax, bu məsələdə dəyərli oxucularımız özləri nəticə çıxarıb, onlara daha hansı adların verilməsini öz aralarında müzakirə etsinlər...

***Rövşən NURƏDDİNOĞLU***



**Təhmasib Novruzov**

# Yağma yağış, müxalifət əsəbləşir

***Dünən Bakıya son illərdə, yayın cırhacırında görünməmiş güclü yağış yağdı. Yağış təbiətin əzəli-əbədi hadisələrindəndir və təbiəti dəyişdirmək gücündə olan nə bir dövlət var, nə bir texnika. Köhnə kişilər yersiz yağışdan pəjmürdə olanda deyərdilər ki, neyniyək, yer də allahın, göy də allahın, göydən yerə yağış səpələmək də onun, özü bilən məsləhətdi.***

Di gəl bizim bəzi müxalif düşüncəli insanlarımız təbiətin belə şıltaqlıqlarından da istifadə etmək, iqtidara "atəş açmaq" kimi sərsəmliyə əl atırlar. Bakıya yağan güclü yağış, iki gün öncə əsən küləyin yaratdığı fəsadlardan sonra, yeni fəsadlara səbəb oldu. Əvvəla heç kəs yayın ortasında, avqust ayında belə bir yağışın yağacağını gözləmirdi. Bununla belə, bəzi fəsadlarla müşayiət olunmasına rəğmən, yağışın bərəkət, bolluq olduğunu, ekologiyanın saflaşmasında əvəzsiz rol oynadığını bilməyən yoxdur. Yəni, köhnə kişilər dediyi kimi, biz mane ola bilmədiyimiz (əslində, mane olmağa lüzum da olmayan) bu təbiət hadisəsinin fəsadları deyəndə isə mən təkcə onun şəhərdə sel axını yaratmasını, insanların və maşınların sərbəst hərəkətinə mane olmasını nəzərdə tutmuram. Fəsad deyəndə Allahın göndərdiyi yağışın əhəmiyyətini bir yana qoyub, onun yaratdığı xırda problemləri indiki hakimiyyətin ayağına yazmaq kimi sərsəm fikirlərə şərait yaratmasını nəzərdə tuturam. Başa düşmək olmur, əgər ABŞ, Çin, Hindistan, Yaponiya, Türkiyə, Kanada, İngiltərə, Fransa kimi Azərbaycandan qat-qat güclü dövlətlərdə iqtidarlar belə sel-sulardan sığorta olunmayıblarsa, cəmi 28 illik müstəqillik tarixi olan bir ölkənin iqtidarı bunu necə etsin? Həm də axı niyə etsin? Təbiəti dəyişdirib, yağışı istədiyi qədərdə, istədiyi zamanlarda yağdırmaq kimi kəşf elmə məlum deyil və bu baxımdan bütün bəşəriyyət bu və digər təbiət hadisələri qarşısında acizdir. Amma bizim bəzi müxalif düşüncəli həmvətənlərimiz ondan da siyasi şou düzəltmək istədilər. Yağış səngiyən kimi kameranı qoltuğuna vurub Bakının küçələrini ələk-vələk edən bəzi müxalif mövqeli sosial şəbəkə qəhramanları harda bir gölməçə görüblərsə, dərhal kameraya köçürüb oturdublar öz şəbəkələrinə, altından da şərh kimi bir şey qondurublar ki, hakimiyyət Bakını niyə xilas eləmir? Özü də bunu edənlərin tam əksəriyyəti Paşinyanın üç-dörd gün öncəki sərsəmləməsinə cınqırını belə çıxarmayanlar oldu. Başa düşmək olmur, yanımızdakı düşmənin bütöv bir xalqa etdiyi həqarətdən narahat olmayan bu zatlar allahın göndərdiyi yağışdan niyə bu qədər "narahat" olurlar?

Bunları yazmaqla heç də deməyim o deyil ki, yağışın, qarın, digər təbiət hadisələrinin yarada biləcəyi fəsadlara qarşı heç bir hazırlıq görülməməlidir. Əksinə, dövlət qurumları da, hər bir vətəndaş da belə hadisələrdən maksimum dərəcədə sığortalanmaq üçün qabaqlayıcı tədbirlər görməlidir və ədalət naminə deməliyik ki, Bakı şəhərinin rəhbərliyi belə tədbirlər görürlər. Nöqsanları, çatışmazlıqları ilə hər fəsadın təcili aradan qaldırılmasına yönəlik görülən işlərin hamımız şahidi oluruq. Amma belə təbiət hadisələrini də, onun törətdiyi fəsadları da siyasiləşdirib indiki iqtidarın bacarıqsızlığı kimi təqdim etmək cəhdi siyasi səbatsızlıqdan başqa bir şey deyil. Çalışaq siyasi səbatsız olmayaq...

# Məhbusların şərəf və ləyaqətinin qorunması

II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən Müvəkkil Mədəniyyətlərarası və Dinlərarası Dialoq üzrə UNESCO kafedrasının akademik Forumunda çıxış edərək, bu forumun həmrəylik nümayiş etdirmək üçün bir amil olduğunu diqqətə çatdırmış, Azərbaycanın bir multikulturalizm modeli kimi, üzv dövlətlər arasında mədəniyyətlərarası və dinlərarası dialoqu təşviq etdiyini, ölkəmizdə mövcud olan müxtəlif dini təriqətlərə, məzhəblərə, konfessiyalara, həmçinin, məscidlərə, kilsələrə, sinaqoqlara və kafedralara dövlət tərəfindən eyni səviyyədə, heç bir ayrı-seçkiliyə yol verilmədən diqqət göstərildiyini, eyni zamanda, 25 ildən çox davam edən erməni təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin zəbt olunduğunu, bir milyon soydaşımızın qaçqına və məcburi köçkünə çevrildiyini, işğal olunmuş ərazilərdə nadir memarlıq nümunələri ilə yanaşı, məscidlərin, ibadətgahların, tarixi, mədəni və dini abidələrin də dağıdıldığını bildirmiş, qanunun aliliyinin təmin edilməsinin, insan hüquqlarının müdafiəsi və təşviqinə hörmət mədəniyyətinin formalaşdırılmasının sülh mədəniyyəti aşılanmasının zəruriliyini bildirmişdir.

Yeri gəlmişkən, Asiya Ombudsmanlar Assosiasiyasının fəaliyyətində fəal iştirak edən Müvəkkil Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində həmin qurumun "Ombudsman fəaliyyətinin problemləri" mövzusunda 14-cü Konfransında "İnsan hüquqlarının təşviqi və müdafiəsinə dair strateji yanaşma mövzusunda çıxış etmiş, Direktorlar Şurasının iclasında iştirak etmiş və Asiya Ombudsmanlar Assosiasiyasının vitse-prezidenti seçilmişdir.

2015-ci il üzrə fəaliyyətin nəticəsi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi, vətəndaşların müraciətlərinə təxirəsalınmadan baxılmış, həmçinin, şikayətlərin çevik qaydada araşdırılması məqsədi ilə dövlət orqanları, bələdiyyələr, vətəndaş cəmiyyəti təsisatları və kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da genişləndirilməsinin, davamlı olaraq inkişaf etdirilməsi və daim təkmilləşdirilməsinin zəruri olduğunu göstərmişdir.

Dövlət qurumlarına göndərilmiş, habelə, Müvəkkilin illik məruzələrində irəli sürülmüş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli təmin edilməsinə və etibarlı mudafiəsinə, habelə, əhalinin müvafiq qruplarının bir sıra sosial-iqtisadi problemlərinin həllinə yönəldilmiş təklif və tövsiyələr nəzərə alınaraq, həm qanunvericilik aktlarında öz əksini tapması, həm də inkişafa və sosial rifaha xidmət edən tədbirlər vasitəsilə həyata keçirilməsi ölkəmizdə insanların həyat səviyyəsinin və sosial-hüquqi vəziyyətinin daha da yaxşılaşmasına dəstək verəcəkdir.

Bakıda və bölgələrdə "ASAN xidmət" mərkəzlərinin vətəndaşlara xidmətin müasir standartlar səviyyəsində göstərilməsi üzrə uğurlu fəaliyyəti böyük əhəmiyyət daşımışdır.

Vətəndaşların şəxsiyyət vəsiqələri və pasportlarla maneəsiz təmin edilməsi demək olar ki, öz həllini tapmış, yaşayış yeri üzrə qeydiyyatın aparılması və mövcud sahədə digər məsələlərin həllində olan qanun pozuntuları xeyli azalmışdır.

Müvəkkilin və əməkdaşlarının regionlarda keçirdikləri görüş və qəbullar, habelə, maarifləndirmə tədbirləri çərçivəsində polis orqanlarının rəhbərliyi və şəxsi heyəti ilə görüşlər keçirilmiş, təsisatın hüquqi nəşrləri təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olumuş, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində əməkdaşlığa böyük önəm verilmişdir.

2015-ci ildə şəxsiyyət vəsiqəsi, habelə, qeydiyyatla bağlı respublikanın şəhər və rayonlarından 89 müraciət daxil olmuşdur. Həmin müraciətlər üzrə görülmüş tədbirlər nəticəsində pozulmuş hüquqlar bərpa edilmişdir.

Belə ki, Müvəkkilin aidiyyəti üzrə müraciətlərindən sonra bir sıra vətəndaşların şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi, yaşayış yeri üzrə qeydiyyatı məsələsi, o cümlədən, müvafiq polis orqanlarının inzibati binalarına qeydiyyata alınaraq, şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi kimi problemlər öz həllini tapmışdır.

Şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnaməsi olmayan 16 yaşına çatmış bir sıra vətəndaşlar öz müraciətlərində həmin sənədlərin itirilməsi, yanması, korlanması, oğurlanması nəticəsində təqdim edib bilinməməsi səbəbindən polis orqanları tərəfindən onlara şəxsiyyət vəsiqəsinin və ya qeydiyyat orqanları tərəfindən doğum haqqında şəhadətnamənin verilməsindən imtina edildiyini bildirmişlər.

Eyni vaxtda hər iki sənədi olmayan vətəndaşların bu sənədləri əldə etməsi qanunvericilik baxımından mümkünsüzdür. Belə ki, doğum haqqında şəhadətnamənin təkrarını almaq üçün şəxsiyyət vəsiqəsinin və ya yeni şəxsiyyət vəsiqəsinin alınması üçün doğum haqqında şəhadətnamənin təqdim edilməsi qanunla tələb edilir. Odur ki, Müvəkkil "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsinə yeni məzmunda üçüncü hissənin ("Şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnaməsi olmayan Azərbaycan Respublikasının vətəndaşına yeni şəxsiyyət vəsiqəsi verilərkən müvafiq icra hakimiyyəti orqanı doğum haqqında akt qeydləri kitabından təsdiq edilmiş çıxarışın (arayışın) verilməsi üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edir"), Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli, 145 nömrəli qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 9.7-ci bəndinin birinci abzasına üçüncü cümlənin əlavə edilməsini ("Şəxsiyyət vəsiqəsi olmayan 16 yaşına çatmış şəxslərə təkrar şəhadətnamələr verilərkən müvafiq qeydiyyat orqanı Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə və onun müvafiq orqanlarına həmin şəxslərin şəxsiyyətini təsdiq edən məlumatlarının verilməsi üçün müraciət edir və müəyyən edilmiş qaydada təsdiq olunmuş arayış alındıqdan sonra təkrar şəhadətnamələr verilir) təklif edir.

Müvəkkil ölkəmizə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının səmərəli müdafiəsi baxımından, onların ölkəmizdə 3 gün deyil, 7 və ya 10 gündən artıq müvəqqəti qaldıqları halda olduğu yer üzrə qeydiyyata alınmaları ilə bağlı qanunvericiliyə dəyişikliklər edilməsini təklif etmişdir. Bu baxımdan, Azərbaycan Respublikasının 2015-ci il 3 aprel tarixli, 1253-IVQD) saylı Qanununa əsasən, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin yeni redaksiyada verilməsi ("Azərbaycan Respublikasında 10 gündən artıq müvəqqəti olun əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 21-ci maddəsi ilə müəyyən edilmiş müddətdə və qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar") olduqca əhəmiyyətlidir.

Müvəqqəti saxlama yerlərində və istintaq təcridxanalarında saxlanılan şəxslərin hüquqlarının müdafiəsi diqqətdə saxlanılmışdır. Müvəkkil və əməkdaşları tərəfindən müxtəlif vaxtlarda yerli polis orqanlarının, habelə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə idarəsinin, Pasport, Qeydiyyat və Miqrasıya Baş İdarəsinin Qanunsuz miqrasiyaya qarşı mübarizə idarəsinin və İnsan Alverinə qarşı Mübarizə İdarəsinin müvəqqəti saxlama yerlərinə, Bakı Şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlanılma məntəqəsinə, Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə, həmçinin, Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti Saxlama Yerinə və İstintaq Təcridxanasına, Penitensiar Xidmətin təcridxanalarına müntəzəm olaraq çoxsaylı baxışlar keçirilmişdir.

> Müvəqqəti saxlama yerlərində və istintaq təcridxanalarında saxlanılan şəxslərin hüquqlarının müdafiəsi diqqətdə saxlanılmışdır. Müvəkkil və əməkdaşları tərəfindən müxtəlif vaxtlarda yerli polis orqanlarının, habelə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə idarəsinin, Pasport, Qeydiyyat və Miqrasıya Baş İdarəsinin Qanunsuz miqrasiyaya qarşı mübarizə idarəsinin və İnsan Alverinə qarşı Mübarizə İdarəsinin müvəqqəti saxlama yerlərinə, Bakı Şəhər Baş Polis İdarəsinin İnzibati həbs olunanların saxlanılma məntəqəsinə, Dövlət Miqrasiya Xidmətinin Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə, həmçinin, Milli Təhlükəsizlik Nazirliyinin Müvəqqəti Saxlama Yerinə və İstintaq Təcridxanasına, Penitensiar Xidmətin təcridxanalarına müntəzəm olaraq çoxsaylı baxışlar keçirilmişdir.

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 10 avqust

## Fransız rejissoru 91 yaşında vəfat edib



Fransız rejissoru Jan-Pyer Moki 91 yaşında vəfat edib. Bu barədə məlumatı "France-Press" agentliyi rejissorun ailəsinin bəyanatına istinadla yayıb. Məlumatda deyilir ki, Moki avqustun 8-də Parisdəki evində yaxınlarının əhatəsində vəfat edib. Jan-Pyer Moki karyerasına teatr və kino aktyoru kimi başlayıb. Onu Mikelancelo Antonioninin 1953-cü ildə çəkdiyi "Məğlub edilmişlər" filmindəki rolu məşhurlaşdırıb.

1963-cü ildə çəkdiyi "Məzəli mömin" komediyası isə ona bir rejissor kimi şöhrət qazandırıb. Jan-Pyer Moki "Solo" (1969), "Səfehlər üçün tələ" (1979), "Qızıl dib" (1985), "Salam" (1994), "Könüllü" (2006) və s. filmlərin rejissorudur. O, öz karyerası ərzində 60-dan çox bədii film çəkib. Mokinin filmlərində Jerar Depardye, Pyer Rişar, Burvil və Mişel Simon kimi aktyorlar çəkiliblər. O, dəfələrlə ssenarist, montajçı, prodüser və aktyor kimi çıxış edib.

## Alimlərdən ulduz təkamülünə dair yeni kəşf!



Alimlərdən ibarət beynəlxalq qrup ulduz təkamülünü öyrənməyin yeni üsulunu kəşf edib. AZƏRTAC The Astrophysical Journal nəşrinə istinadla xəbər verir ki, yeni metod parlaq göy cisimlərinin yaranma tarixini planetlərin çəkisi və radiusu ilə müəyyən edəcəklər.

Astronomların və riyaziyyatçıların daxil olduqları qrup multiplanetar sistemin əsas ulduzlarının təkamülü prosesinin riyazi analizini işləyib hazırlayıb. Alimlər bir və ya bir neçə yaxın orbitli planetin (mini Neptun qaz planetinin və "ana" ulduzların təsiri altında meydana gələn Yerə bənzər ekzotik planetin) məlum çəkisini hesablayıblar. Bu cür yanaşma tərzi ulduzun fırlanma sürətinin tarixini və onun aktivliyini müəyyən etməyə imkan verir. Yeni üsulla ulduz aktivliyinin təkamülünü, o cümlədən ultrabənövşəyi, yaxud rentgen şüalanmasını öyrənmək yolu ilə onlar yaxın orbitli multiplanetar sistemə daxil olan planetin çəkisini müəyyən edirlər. Bu metod astrofiziklərə imkan verir ki, onlar planetar sistemin riyazi proqnozlarını müqayisə edərək təkamül prosesini dədiqləşdirsinlər.

Tədqiqatların nəticələri göstərib ki, yaxın orbitli planetin atmosfer təkamülünün modelləşdirilməsi ulduzların fırlanması tarixinə aydınlıq gətirir. Bundan başqa, bir neçə planet sisteminin az məlum olan parametrlərini (məsələn, planetin çəkisi və radiusu) müəyyən etmək də mümkündür. O da məlum olub ki, çəkisinə görə Neptun ağırlığında və ya ondan kiçik olan, habelə hidrogenin üstünlük təşkil etdiyi yaxın orbitli planetləri də bu metodla öyrənmək olar. Bu tədqiqat HD 3167 i K2-32 planetlərarası ulduzlar sistemində aparılıb. Müəyyən edilib ki, onların çəkisində fərqlər az olsa da, birinci ulduz orta və yüksək sürətlə, ikincisi isə daha yavaş templə fırlanır.

Tədqiqat müəllifləri hesab edirlər ki, bu metod Avropa Kosmik Agentliyinin hazırladığı PLATO (Planetary Transits and Oscillations of Stars) missiyası çərçivəsində istifadə oluna bilər. Yeni üsul 2026-cı ildə kosmosa buraxılacaq yüksək texniki göstəriciləri olan teleskopun köməyi ilə planetar sistemləri müşahidə etməyə də imkan verəcək.

## Uşaqları dil bilmədən birinci sinfə qəbul etmək olarmı?



Almaniya bundestaqında XDİ/XSİ fraksiyası başçısının müavini Karsten Linnemannın alman dilini pis bilən uşaqların ibtidai məktəblərə qəbul edilməməsi barədə təklifi solçu və sol-mərkəzçi partiyalar tərəfindən kəskin tənqid edilib. AZƏRTAC xəbər verir ki, solçu qüvvələr siyasətçinin bu bəyanatını ayrı-seçkilik adlandırıblar. Linnemannın bu yaxınlarda "Rheinischen Post" qəzetinə müsahibəsi qalmaqala səbəb olub. O deyib ki, alman dilində danışmağı bacarmayan və ya bu dili başa düşməyən uşağın məktəbdə yeri yoxdur. O, belə uşaqlara məktəb yerinə, uşaq bağçasına getməyi məsləhət görüb.

Lakin partiya yoldaşları arasında onu dəstəkləyənlər tapılıb. Məsələn, XDİ/XSİ bloku nəzdindəki gənclər təşkilatının təmsilçisi Tilman Kuban öz mikrobloqunda Linnemannın təklifini düzgün təklif adlandıraraq yazıb: "Əgər uşaq ibtidai məktəbə gedirsə, o, alman dilində danışmağı bacarmalıdır".

## "Neftçi"dən əzmkar geri dönüş!



Futbol üzrə UEFA Avropa Liqasının 2019-2020-ci il mövsümünün üçüncü təsnifat mərhələsi çərçivəsində keçirilən "Neftçi"-"Bney Yehuda" qarşılaşması keçirilib. 0:2 hesabı ilə geri düşməsinə baxmayaraq, komandamız əzmkar mübarizə nəticəsində rəqibin qapısından 2 top keçirərək, hesabı bərabərləşdirib. Qarşılaşma 2:2 hesabı ilə başa çatıb.

Bu komandalar arasında cavab görüşü bir həftə sonra İsraildə keçiriləcək. Xatırladaq ki, "Neftçi" birinci təsnifat mərhələsində Moldovanın "Speranta" komandasını məğlub edib (3:0, 6:0), ikinci təsnifat mərhələsində isə Rusiyanın "Arsenal" klubuna hər iki görüşdə qalib gəlib (1:0, 3:0).

Cari mövsümdə mübarizəyə ikinci təsnifat mərhələsindən başlayan "Bney Yehuda" UEFA Avropa Liqasında Azərbaycan klubları ilə ikinci dəfə qarşılaşır. İsrail klubu 2009-2010-ci il mövsümündə birinci təsnifat mərhələsində "Simurq"u hər iki görüşdə məğlub etmişdi.

## UEFA gürcü klubunu cərimələyib




UEFA-nın intizam komitəsi Gürcüstanın "Dinamo-Tbilisi" komandasını cərimələyib. UEFA-nın qərarı ilə "Dinamo" 50 min avro cərimə olunub. Qurumun digər qərarı ilə "Dinamo-Tbilisi" komandasının Hollandiyanın "Feyenoord" komandası ilə Avropa Liqasının III təsnifat mərhələsindəki cavab görüşü azarkeşsiz keçiriləcək. Buna səbəb Avropa Liqasının II təsnifat mərhələsində "Qəbələ" ilə cavab görüşü zamanı "Dinamo" azarkeşlərinin irqçi davranışları göstərilib. Bundan başqa, "Feyenoord"la oyun zamanı Boris Payçadze adına "Dinamo" stadionunda #EqualGame banneri asılmalıdır.

## "Qarabağ" - "APOEL" oyununa 8 min bilet satılıb




UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün üçüncü təsnifat mərhələsi çərçivəsində Ağdamın "Qarabağ" və Kiprin "APOEL" klubları arasında avqustun 13-də Bakıda keçiriləcək cavab matçına indiyədək 8 min bilet satılıb. "Qarabağ" klubunun səhifəsində yer alan məlumata görə, biletlərin qiymətləri sektorlardan asılı olaraq 2, 5, 10 və 50 manatdan təklif edilir. Biletləri Tofiq Bəhramov adına Respublika Stadionunun kassalarından, "Gənclik Mall", "28 Mall" və "Park Bulvar" ticarət mərkəzlərindəki "Iticket" satış məntəqələrindən, 2 və 3 saylı "ASAN xidmət" mərkəzlərindən və "iticket.az" saytından əldə etmək mümkündür. Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək qarşılaşma saat 20:30-da başlayacaq. Xatırladaq ki, birinci görüşdə "Qarabağ" səfərdə "APOEL" komandasını 2:1 hesabı ilə məğlub edib.

## İngilis klubları yay transfer pəncərəsində 1,31 milyard funt sterlinq xərcləyiblər



PREMIER LEAGUE SUMMER NET TRANSFER SPENDS

| TEAM | IN | OUT | NET SPENDS |
|---|---|---|---|
| Aston Villa | £131.5m | £0 | £131.5m |
| Arsenal | £138m | £12.35m | £125.65m |
| Man City | £114.4m | £8.5m | £105.9m |
| Man Utd | £145m | £64.5m | £80.5m |
| Wolves | £60m | £0 | £60m |
| Tottenham | £88.7m | £30m | £58.7m |
| Everton | £124.5m | £66.5m | £58m |
| Brighton | £59.4m | £4.4m | £55m |
| Bournemouth | £47.7m | £0 | £47.7m |
| Sheff Utd | £41.5m | £0 | £41.5m |
| West Ham | £79.4m | £40.4m | £39m |
| Southampton | £47m | £15m | £32m |
| Newcastle | £61.5m | £31.7m | £29.8m |
| Watford | £35.75m | £18.2m | £17.55m |
| Burnley | £13.6m | £8.5m | £5.1m |
| Norwich | £1.05m | £0 | £1.05m |
| Leicester | £76m | £85m | -£9m |
| Liverpool | £1.3m | £11.4m | -£10.1m |
| Crystal Palace | £5m | £45m | -£40m |
| Chelsea | £40m | £104.9m | -£64.9m |
| TOTAL | £1.31bn | | |

Futbol üzrə İngiltərə çempionatında - Premyer Liqada çıxış edən klublar ötən gün başa çatan yay transfer pəncərəsində heyətlərini gücləndirmək üçün 1,31 milyard funt sterlinq xərcləyiblər. Belə ki, cari mövsüm bu göstərici üzrə Premyer Liqa tarixində ikincidir. İki əvvəl yay transfer pəncərəsində futbolçuların alınmasına 1,43 milyard funt sterlinq sərf olunub.

Klublar arasında futbolçu transferi üçün ən çox (145 milyon funt sterlinq) pul xərcləyən "Mançester Yunayted"dir. "Qırmızı şeytanlar" təkcə müdafiəçi Harri Maquayrı heyətinə qatmaq üçün 85 milyon funt sterlinq ödəyib. İkinci yerdə 138 milyon funt sterlinqlə "Arsenal" klubu qərarlaşıb. İlk beşlikdə "Aston Villa" (131,5 milyon), "Everton" (124,5 milyon) və "Mançester Siti" klubları yer alıblar. Ən bahalı transferlərin siyahısına H.Maquayr başçılıq edir. Sonrakı yerlərdə Nikolas Pepe ("Arsenal", 72 milyon), Rodri ("Mançester Siti", 62,5 milyon), Tanquy Ndombele ("Tottenhem", 55 milyon) və digər futbolçular qərarlaşıblar.

## David Silva "Mançester Siti"nin yeni kapitanı oldu



"Mançester Siti" 2019/2020 mövsümü üçün yeni kapitanını açıqlayıb. İngilis klubunun rəsmi "Tvitter" səhifəsində yer alan məlumata görə, 33 yaşlı yarımmüdafiəçi David Silvaya kapitanlıq sarğısı həvalə olunub. Fernandinyo və Kevin de Brüyne vitse-kapitanlar təyin edilib. Qeyd edək ki, komandanın ötən mövsüm kapitanı yayda "Mançester Siti"dən ayrılan Vensan Kompani idi

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600